Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 72 (8095) CÜMƏ, 5 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev daha 600 min insanı sevindirdi

## 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artdı

**Ölkə əhalisinin layiqli həyat səviyyəsini təmin etmək və rifahını yüksəltmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir.**

**Prezident İlham Əliyevin son 3 ayda böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatlar, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür.**

### Artan iqtisadi qüdrətin təzahürləri

Əgər diqqət etsək, aydın şəkildə görərik ki, son 3 ayda elə bir sahə yoxdur ki, maaşlarda, eləcə də sosial müavinətlər və təqaüdlərdə artımlar edilməsin.

İlk növbədə qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin durumunu diqqətdə saxlayan Prezident İlham Əliyev bu kateqoriyaya aid insanlara öz dəstəyini göstərir. Şəhid ailələrinə istisnasız olaraq birdəfəlik müavinətlərin verilməsi, bu kateqoriyaya aid insanlara müavinətin 242 manatdan 300 manata, həmçinin Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata yüksəldilməsi, məcburi köçkünlərə verilən aylıq müavinətlərin 50 faiz qaldırılması bunun əyani təzahürüdür.

Bununla yanaşı, son aylarda dövlət başçısının imzaladığı fərman və sərəncamlara əsasən, minimum əməkhaqqının 38 faiz artaraq 130 manatdan 180 manata çatdırılması, minimum pensiyaların 38 faiz artaraq 116 manatdan 160 manata qədər qaldırılması, 100 minə yaxın tələbənin təqaüdünün yüksəldilməsi dövlətin iqtisadi qüdrətinin daha da yüksəldiyini bir daha təsdiqləyir.

### Yüksələn sosial müavinət və təqaüdlər...

Aprelin 1-dən etibarən dövlət başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı qüvvəyə mindi və 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırıldı.

600 minə yaxın insanı, o cümlədən əlilliyi olan 300 min şəxsi əhatə edən sənəd bu kateqoriyaya aid şəxslərin sosial durumunun yaxşılaşdırılmasına xidmət edir.

Ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, Çernobıl qəzasının ləğvi ilə əlaqədar əlilliyi olanlar üçün (əmək pensiyası hüququ olmayan) ayrılan vəsaitin və digər sosial müavinətlərin artan məbləğlərinə nəzər salaq:

- yaşa görə sosial müavinət 130 manat;
- I qrup əlilliyə görə 150 manat;
- II qrup əlilliyə görə 130 manat;
- III qrup əlilliyə görə 110 manat;
- ailə başçısını itirməyə görə 80 manat;
- sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara 150 manat;
- valideynlərini itirmiş uşaqların qəyyumlarına 100 manat;
- müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına 100 manat;
- beşdən çox uşağı olan qadınlara hər uşaq üçün 55 manat;
- uşağın anadan olmasına görə 200 manat;
- dəfn üçün ödənilən sosial müavinət 300 manat;
- I qrup əlilliyə görə Prezident təqaüdü 100, onlara qulluq edənlərə 50 manat;
- sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara Prezident təqaüdü 50 manat oldu.

### Pensiyanın sığorta hissəsi əvəzinə Prezident təqaüdü veriləcək

Bundan başqa, sərəncamla müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Prezidentin təqaüdü də təsis edilib.

Sərəncam ilə müharibə əlilləri və onlara bərabər tutulan şəxslər üçün Prezident təqaüdünün məbləği I qrup əlilliyə görə 182 manatdan 250 manata, onlara qulluq edənlərə isə 50 manat, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə, 121 manatdan 210 manata çatdırılıb.

Beləliklə, əgər I qrup müharibə əlilləri və onlara bərabər tutulan şəxslər 150 manat sosial müavinət alırdılarsa, bundan sonra həmin məbləğin üzərinə 250 manat Prezident təqaüdü və 50 manat da onlara qulluq edən şəxsin məvacibi daxil ediləcək. Yəni bu kateqoriyaya aid şəxslər ayda ümumilikdə 450 manat alacaqlar.

II qrupa aid olanların (130 + 230) 360, III qrupa aid olanların isə (110+ 210) alacaqları müavinət 320 manata yüksəlib.

Onu da əlavə edək ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Prezident təqaüdünün məbləği 150 manat olub.

### Aprel döyüşlərində əlil olanların təqaüdləri 100 faiz artırıldı

Azərbaycan tarixinin qürurverici səhifələrindən biri olan 2016-cı il Aprel döyüşlərində həlak olmuş qəhrəman Vətən oğullarının - şəhidlərimizin ailələri, yaralanmış əsgər və zabitlər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar.

*Ardı 3-cü səh.*

# Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsi ildən-ilə yüksəlir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsinin ildən-ilə yüksəldiyini və bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirdi. Dövlət başçısı müxtəlif istiqamətlərdə, o cümlədən sənaye sahəsində əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev son illər ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasının önəmini vurğuladı və bu sahədə artıq yaxşı nəticələrin əldə olunduğunu dedi. Dövlət başçısı Rusiya şirkətlərinin Azərbaycanda fəal iştirak etdiklərini və bu şirkətlərin həm investor, həm də podratçı qismində müxtəlif layihələri icra etdiklərini qeyd etdi. Prezident İlham Əliyev maşınqayırma sahəsində də birgə layihələrin olmasından məmnunluğunu ifadə etdi, Rusiya banklarının Azərbaycanda iri sənaye müəssisələrini maliyyələşdirməsinin əhəmiyyətini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən nazir Denis Manturov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

O, Azərbaycanda Rusiya ilə birgə şirkətlərin fəaliyyət göstərməsinin və ümumi layihələrin həyata keçirilməsinin iqtisadi əməkdaşlığın genişlənməsi üçün möhkəm əsas yaratdığını vurğuladı. Denis Manturov qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin ötən ilin sentyabrında Rusiya Federasiyasına səfəri zamanı dövlət başçılarının müəyyənləşdirdiyi kimi, iqtisadi əməkdaşlığın konkret sahələrinin inkişafı ilə bağlı fəal iş həyata keçirilir və yeni sahələr, o cümlədən rəqəmsallaşdırma üzrə perspektivlər müzakirə edilir. Denis Manturov iqtisadi əməkdaşlığın inkişafında kibertəhlükəsizliyin önəmini xüsusilə vurğuladı. Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumunun əhəmiyyətinə toxunan rusiyalı nazir forumda 60-dan artıq Rusiya şirkətinin iştirak etdiyini vurğulayaraq tədbirdə Azərbaycan şirkətləri ilə işgüzar müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.

Görüşdə neft maşınqayırması, kənd təsərrüfatı texnikasının və yük vaqonlarının birgə istehsalı, helikopterlərin servis mərkəzinin yaradılması, dərman istehsalı və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edildi.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

# Daşkəsən rayonunun Gəncə-Daşkəsən (27 km)-Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Üç min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Gəncə-Daşkəsən (27 km)-Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,5 milyon (səkkiz milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2019-cu il*



# Hərbi güc Azərbaycandadır

## Cəbhədə yeni savaş başlasa, Ermənistan tarixinin ən böyük fəlakətini yaşayacaq

**Üç il əvvəl ordumuzun əks həmlə ilə düşmənə vurduğu sarsıdıcı zərbə ilk növbədə Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş imkanlarının təsdiqi kimi tarixə düşdü.**

Eyni zamanda Aprel döyüşləri onu göstərdi ki, xalqımız ərazi bütövlüyünün bərpası və işğal altındakı torpaqlarımızın erməni tapdağından azad edilməsi üçün istənilən an müqəddəs savaşa hazırdır.

### Böyük tarixi qələbə

Ermənistan hərbi birləşmələri 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusundan layiqli cavab aldılar. Ciddi tələfat verərək geri çəkilmək məcburiyyətində qalan erməni hərbçiləri Azərbaycan Silahlı Qüvvələrinin gücünü və qüdrətini bir daha gördülər. Nə qədər gizlətməyə çalışsalar da, ayrı-ayrı erməni mənbələri Ermənistan ordusunun çoxsaylı canlı qüvvə və hərbi texnika itirdiyini etiraf etdi. Bu hadisəyə Azərbaycan cəmiyyətinin reaksiyası isə xalqımızın vətənpərvərlik ruhunun, torpaqlarımızı işğaldan azad etmək əzminin nə qədər yüksək olduğunu göstərdi.

2016-cı ilin aprelinə qədər Azərbaycan və eləcə də beynəlxalq ictimaiyyət ordumuzun hansı gücə malik olduğunu parad və təlimlərdə görmüşdü. Dördgünlük müharibənin yekunu olaraq düşmənin 22 il ərzində möhkəmləndikləri mövqelərindən, xüsusən strateji yüksəkliklərdən geri otuzdurulması, iki min hektar işğal olunmuş ərazinin azad edilməsi göstərdi ki, Azərbaycan Ordusu həqiqətən əzici gücə və üstünlüyə malikdir.

Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Çünki ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu.

*Ardı 3-cü səh.*




# Bakı "Formula-1"ə hazırdır

## Sürət yarışının ən möhtəşəm tribunaları paytaxtımızda qurulub

**Çoxsaylı siyasi, mədəni və digər səpkili beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi edən Azərbaycan növbəti möhtəşəm tədbir ərəfəsindədir. Belə ki, paytaxtımızda sayca 4-cü dəfə "Formula-1" Azərbaycan Qran-prisi keçiriləcək.**

Sürət və adrenalin sevən "F1" azarkeşləri Bakı Şəhər Halqasında təşkil olunacaq möhtəşəm yarışdan zövq alacaqlar. Son 3 ildəki yarışlardan sonra yüksək təşkilatçılıqla nümunə göstərən Azərbaycan növbəti dəfə dünyanın ən güclü pilotlarını qarşılamağa hazırdır.

Əminliklə söyləmək olar ki, cari mövsümün 4-cü mərhələsi olan Azərbaycan Qran-prisində sürət həvəskarlarını möhtəşəm yarış gözləyir. Yarışların keçirildiyi şəhər treki Bakı Şəhər Halqası (BŞH) adlanır və uzunluğuna görə dünyada ikincidir. Yarış 20 müxtəlif çətinlikli döngəsi və 6 kilometrlik uzunluğu ilə 51 dövrədə tamamlanacaq.

"Formula-1" Azərbaycan Qran-prisi "Azadlıq" meydanından start götürəcək və burada da başa çatacaq. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində olacaq.

Bakı trekini əhatə edən asfalt örtüyünün yarışa hazır vəziyyətə gətirilməsi məqsədilə təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Hazırlıq işləri ilə yaxından tanış olmaq üçün Bakı Şəhər Halqasına yollandıq. Trekə daxil olan yolların kənarlarına artıq beton bəndlər yerləşdirilib və setkalar çəkilib. Asfalt örtüyündə kiçik bərpa işləri də tamamlanıb.



*Ardı 4-cü səh.*

## N.M.Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Nizami Manaf oğlu Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2019-cu il*

## Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanda Paralimpiya hərəkatının daha da inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasını möhkəmləndirmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan komitəyə 500 000 (beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2019-cu il*

## "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin qanunun 3.4-cü maddəsinin birinci cümləsinə uyğun olaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. həmin qanunun pozulmasına görə məsuliyyət müəyyən edən qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin qanunun 26.3-cü, 26.4-cü və 26.5-ci maddələrində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. Mediasiya Şurasının yaradılmasına dövlət dəstəyinin göstərilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.6. həmin qanunun 15.3-cü maddəsinə uyğun olaraq, mediasiya reyestrinin aparılması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin qanunun 20.1.5-ci, 25.2-ci, 26.6-cı və 27.2-ci maddələrinə uyğun olaraq, mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin qanunun 20.1.5-ci maddəsinə uyğun olaraq, mediatorların peşəkar etik davranış qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.9. həmin qanunun 20.1.5-ci maddəsinə uyğun olaraq, mediasiya prosesinin həyata keçirilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. həmin qanunun 36.2-ci maddəsinə uyğun olaraq, ilkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləğini üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.11. həmin qanunun 36.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.13. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.14. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü, 20.1.5-ci, 25.2-ci, 26.3-26.6-cı, 27.2-ci, 36.2-ci maddələrində, 36.7-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 15.3-cü, 20.1.5-ci, 25.2-ci, 26.6-cı, 27.2-ci, 36.2-ci maddələrində, 36.7-ci maddəsinin ikinci cümləsində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2019-cu il*

# Azərbaycanın Baş naziri Rusiyanın sənaye və ticarət naziri ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov aprelin 4-də Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin mövcud olduğunu bildirərək deyib: "Qarşılıqlı hörmət prinsiplərinə əsaslanan Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır və bütün sahələri əhatə edir. Əminəm ki, bu əlaqələr gələcəkdə daha da inkişaf edəcək".

Baş nazir Novruz Məmmədov Bakıda keçirilən Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumunun önəmini vurğulayaraq bu tədbirin, həmçinin sənaye və ticarət naziri Denis Manturovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin iqtisadi əlaqələrimizin daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Azərbaycanda qeyri-neft sənayesi sahələrinin davamlı inkişafına, sənaye sahəsində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərildiyini bildirən Baş nazir ölkəmizdə yaradılan sənaye parkları, o cümlədən Pirallahı Sənaye Parkı barədə ətraflı məlumat verib. Azərbaycana səfərindən, keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edən rusiyalı nazir aparılan müzakirələrin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə təkan verəcəyinə inamını ifadə edib. Denis Manturov bildirib ki, ölkələrimiz arasında mövcud olan konstruktiv yanaşmalar əlverişli biznes mühitinin formalaşmasında önəmli platforma rolunu oynayır.

Söhbət zamanı neft-kimya, maşınqayırma, aviasiya, əczaçılıq sahələrində əməkdaşlığa və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## Rusiya nümayəndə heyəti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyəti aprelin 4-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

# Bakıda Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumu keçirilib





Aprelin 4-də Bakıda aidiyyəti dövlət qurumlarının nümayəndələrinin və sahibkarların iştirakı ilə Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səylərinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaratdığını, bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edən Azərbaycan və Rusiya arasında əlaqələrin strateji səviyyədə olduğunu deyib. Qeyd edib ki, təkcə ötən il ərzində Azərbaycan və Rusiya prezidentləri 6 dəfə görüşüb. Prezident İlham Əliyev Rusiyaya 3 səfər edib, Rusiya Prezidenti Vladimir Putin IX Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak edib. Bu görüşlərdə iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi, layihələrin və təşəbbüslərin həyata keçirilməsi müzakirə edilib, bir sıra mühüm sənədlər imzalanıb. Dövlət rəsmilərinin və iş adamlarının çoxsaylı səfərləri də qarşılıqlı əməkdaşlığa verilən böyük önəmin göstəricisidir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyası ikitərəfli əməkdaşlığın inkişafında önəmli rol oynayır.

Nazir diqqətə çatdırıb ki, dövlət başçılarının ötən il Soçidə keçirilmiş görüşü zamanı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Rusiya Federasiyası Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın inkişafı barədə saziş imzalanıb. Ş.Mustafayev bu gün keçirilən Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumunun iqtisadi-ticarət əlaqələrinin inkişafı baxımından önəmini qeyd edib.

Vurğulayıb ki, Azərbaycan-Rusiya əməkdaşlığının vacib istiqamətlərindən biri ticarət əlaqələridir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və qeyri-neft məhsullarının ixracına görə birinci yeri tutur. Təkcə 2018-ci ildə Rusiya ilə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 20 faiz artaraq 2,5 milyard dollardan çox olub. Artım tendensiyası bu il də davam edib. Hazırda qarşılıqlı ticarət əlaqələrinin daha da artırılması və şaxələndirilməsi üçün tədbirlər görülür: "Rusiyada Azərbaycanın ticarət nümayəndəliyi fəaliyyət göstərir, ticarət evləri mexanizmi tətbiq olunur. İşgüzar əlaqələrin genişləndirilməsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının səmərəli fəaliyyəti mühüm rol oynayır".

İqtisadiyyat naziri əlaqələrin inkişafında Bakıda açılmış Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin fəaliyyətini, bu ilin martında "Qazprombank"ın Azərbaycana investisiya imkanlarına dair biznes seminar keçirildiyini bildirib.

İnvestisiya qoyuluşu sahəsində ölkələrimizin uğurlu əməkdaşlıq etdiyini qeyd edən nazir hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət, bank, sığorta, İKT, nəqliyyat, kənd təsərrüfatı və sair sahələrdə 700-dək Rusiya kapitallı müəssisənin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. İndiyədək Rusiya tərəfi Azərbaycan iqtisadiyyatına 4,4 milyard dollar investisiya qoyub. Azərbaycanın Rusiyaya yatırdığı investisiyaların həcmi 1,2 milyard dollardan çoxdur: "Ölkəmiz Rusiya ilə sənaye sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verir. "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "KamAZ" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin reallaşdırılması qarşılıqlı investisiya qoyuluşu sahəsində önəmli layihələrdən sayılır.

Rusiyanın sənaye və ticarət naziri Denis Manturov Azərbaycan və ölkəsinin strateji tərəfdaşlar olduğunu, iki ölkə prezidentlərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verdiklərini, yüksəksəviyyəli intensiv qarşılıqlı səfərlərin bunun bariz nümunəsi olduğunu vurğulayıb.

D.Manturov bu gün Rusiya tərəfdən 60-dan çox şirkətin iştirakı ilə keçirilən sənaye əməkdaşlığı forumunun, aparılan müzakirələrin iqtisadi sferada qarşılıqlı faydalı birgə fəaliyyət baxımından əhəmiyyətini diqqətə çatdırıb.

Rusiyalı nazir ötən ilin ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı baxımından uğurlu olduğunu və Rusiya-Azərbaycan tərəfdaşlığının daha da güclənəcəyinə əminliyini bildirib. D.Manturov bir sıra sahələrdə, o cümlədən ticarət və investisiya sahəsində müsbət dinamikanın olduğunu qeyd edərək, bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, ölkələrimiz arasında neft-qaz maşınqayırması, İKT, kənd təsərrüfatı, nəqliyyat və sair sahələrdə əməkdaşlığın inkişafı üçün böyük potensial var.

Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının uğurla inkişaf etdiyini vurğulayıb və Azərbaycan-Rusiya İşgüzar Şurasının bu istiqamətdə fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, Azərbaycan və Rusiya arasında iqtisadi və investisiya qoyuluşu sahəsində əlaqələrin, iş adamları arasında əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə Rusiya-Azərbaycan İşgüzar Şurası ilə yaxından əməkdaşlıq edilir.

S.Qurbanov diqqətə çatdırıb ki, Azərbaycan-Rusiya İşgüzar Şurasının əsas prioritetlərindən biri Rusiya şirkətləri ilə Azərbaycanda birgə müəssisələrin yaradılması və istehsal olunacaq məhsulların yerli bazarda satışının və üçüncü ölkələrə ixracının təşkilidir və bu istiqamətdə tədbirlər həyata keçirilir.

Rusiya İxrac Mərkəzinin direktoru Andrey Slepnev iş adamları arasında əlaqələrin genişləndirilməsinin, bu istiqamətdə yüksək texnologiyaların tətbiqinin önəmini diqqətə çatdırıb. Qeyd edib ki, Rusiya iş adamları azərbaycanlı tərəfdaşlarla əməkdaşlığın inkişafında maraqlıdır.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev Azərbaycanın biznes və investisiya imkanları barədə məlumat verib.

Forum çərçivəsində Sumqayıt Texnologiyalar Parkı ilə "Rostselmaş" kombayn zavodu arasında əməkdaşlıq və münasibətlərin təşkili sazişi, Sumqayıt Texnologiyalar Parkı və "Transmaşholdinq" arasında əməkdaşlıq haqqında memorandum, "AzOkso" ilə "ServiceInvest" arasında hasarlama sistemlərinin qurulmasına dair memorandum imzalanıb.

Forum öz işini "Rəqəmsal texnologiyalar", "Neft maşınqayırması" və "Kənd təsərrüfatı maşınqayırması" mövzularında sessiyalarla davam etdirib.

Həmin gün iqtisadiyyat naziri Ş.Mustafayev Rusiyanın sənaye və ticarət naziri D.Manturovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə ölkələrimizin sənaye potensialı, bu sahədə fəaliyyət göstərən müəssisələr arasında əməkdaşlıq və birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Ş.Mustafayev Azərbaycanda uğurla həyata keçirilən sənayeləşmə siyasəti, ölkəmizin sənaye potensialı, yaradılmış sənaye parkları və məhəllələri, birgə layihələr və əməkdaşlığın genişləndirilməsi imkanları barədə məlumat verib.

D.Manturov ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu qeyd edib, Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığının inkişafı perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə maşınqayırma, nəqliyyat, kənd təsərrüfatı texnikası istehsalı, gəmiqayırma, kimya sənayesi və əczaçılıq, aqrar məhsul istehsalı və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, müxtəlif sahələrdə birgə müəssisələrin təşkili, Azərbaycan sənaye məhsullarının ixracının artırılması, nəqliyyat sahəsində əməkdaşlığın gücləndirilməsi və sair məsələlər müzakirə edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi də aparılıb.

# *Elmar MƏMMƏDYAROV:* "Avropa İttifaqı ilə yeni sazişə dair danışıqlarımızı yekunlaşdırmağa çox yaxınıq"




Bu iclası ikitərəfli və regional gündəliyimizin maraqlı kəşisməsi zamanında təşkil etdik. Münasibətlərimizdə elə bir sıxlıq var ki, mən bunu çox müsbət və siyasi nöqteyi-nəzərdən yaradıcı hesab edirəm. Bu, digərləri ilə olan münasibətlərimizdən çox fərqlidir. Belə ki, bu, Avropa İttifaqı üçün də regionda digərləri ilə münasibətlərindən müsbət mənada fərqli olmalıdır. Biz siyasi gündəliyimizi dəstəkləməliyik. Biz imkanlarımızı maksimum səviyyəyə çatdırmağa ehtiyac duyuruq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 16-cı iclasında bildirib.

Nazir deyib: "İlk növbədə bizim yeni ikitərəfli sazişimizlə (layihə) necə və haraya gedəcəyimizi müzakirə etməyə ehtiyacımız var. İnanıram ki, danışıqlarımızı yekunlaşdırmağa çox yaxınıq. Bu yaxınlarda biz danışıqları onun bütün üç hissəsi üzrə sinxronlaşdırmağa müvəffəq olmuşuq. Belə ki, artıq 90 faizi razılaşdırıldığına görə bu gün bizim olduqca yaxşı imkanımız var. Son vaxtlar biz bir sıra "dəyirmi masa"lar və videokonfranslar keçirmişik və eyni zamanda, qarşıdan gələn günlərdə bunu davam etdirməyə çalışırıq. Mən danışıqları tezliklə yekunlaşdırmaq istiqamətində birgə imkanlarımızın mövcudluğu ilə bağlı müsbət fikirdəyəm. Lakin əlbəttə ki, Azərbaycan üçün ən vacibi mahiyyət məsələsidir.

Biz həmçinin dialoqumuzun strateji əhəmiyyət kəsb edən məsələlərini də əhatə edəcəyik. Bunlar enerji və nəqliyyat ilə bağlı məsələlərdir. Bildiyiniz kimi, Azərbaycan regionda və kənarda bir sıra əlaqələndirmə layihələrinin təşəbbüskarı kimi çıxış edir. Bütün bunların məqsədi ticarət kanallarının şəbəkəsini yaratmaq və regionda siyasi və iqtisadi sabitliyi, rifahı təmin etməkdir. Faktiki olaraq biz nəqliyyat sahəsində Aİ ilə ayrıca dialoqa başlamışıq. Həmçinin biz vahid aviasiya üzrə sazişlə bağlı danışıqlar aparırıq. Hökumət və sənaye sahəsindən olan tərəfdaşlarımızla birlikdə biz enerji üzrə tamamilə yeni bir mənbədən - Azərbaycandan Aİ bazarına, onun sənayesinə və insanlarına daha çox təbii qazın çatdırılmasını mümkün edəcək "Cənub qaz dəhlizi"nin tikintisini yekunlaşdırırıq. Azərbaycan bunu mümkün etdi. Aİ bazarını Azərbaycandan daha çox qaz alması üçün daha cəlbedici etmək istəyirsə, tərəfdaşlarımız daha çox səy göstərməlidir.

Yalnız imkanlarımız deyil, həm də çətinliklərimiz var. Buna görə də bu yaxınlarda Təhlükəsizlik Dialoqunu da başlatmışıq. Biz təhlükəsizlik, terrorizmə və ekstremizmə qarşı mübarizə və digər bir çox məsələlərdə oxşar təsəvvürlə tərəfdaşlığımızı necə siyasi cəhətdən dəstəkləyə biləcəyimizi görmək istəyirik. Qeyri-qanuni miqrasiya ilə birlikdə bu məsələlər hamımız üçün ciddi narahatlıq doğura bilər. Burada xüsusilə nəzərə çatdırmaq istərdim ki, beynəlxalq hüquq prinsiplərinin davam edən pozuntusunun nəticələrinin aradan qaldırılması istiqamətində müvəffəqiyyətsizlik, habelə münaqişənin həlli kontekstində bu prinsiplərin yanlış təfsir olunması və selektiv tətbiqi qaydalara əsaslanan Avropa düzənini pozur. Hesab edirəm ki, əgər Avropa İttifaqı qonşuluq siyasətini inkişaf etdirirsə və regionda digər ölkələrə gəldikdə, buna siyasi və maliyyə baxımından bu qədər çox sərmayə qoyursa, onda, əlbəttə ki, qaydalara əsaslanan bir yanaşma olmalıdır.

Bundan əlavə, Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri üzrə nəyin bizə kollektiv olaraq vacib olduğunu və tərəfdaşlığımızın nəyi hədəfləməli olduğunu göstərən bu qısa, lakin hərtərəfli sənədimiz var. Bu, prioritetlərdən bəhs edir. İndi bir intizam yaratmaq və onu həyata keçirmək lazımdır. Orada, deyə bilərəm ki, Azərbaycanın uzaqgörən yanaşması var. Biz bunun necə həyata keçirilməsi ilə bağlı ilkin təsəvvürümüzü Aİ ilə bölüşmüşük. Tezliklə mətnimizi sizinlə bölüşəcəyik və bu yaydan əvvəl praktiki cəhətdən implementasiyaya başlayacağımıza ümid edirik. Fərqləndirmə, çeviklik, diqqət mərkəzində saxlama və daha çox mülkiyyətçilik prinsiplərinin həyata keçirilməsi üçün hər bir ölkənin konkret məqsədləri və iqtisadi potensialına uyğun və prioritetlərə əsaslanan əməkdaşlıq daha səmərəli olardı. Belə bir yanaşma uzunmüddətli münasibətlərimizə müsbət təsir edər və həqiqi fərqləndirmə ruhuna uyğun olardı".



# İlham Əliyev daha 600 min insanı sevindirdi

Əvvəli 1-ci səh.

Dövlət başçısının tapşırığına uyğun olaraq, şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilib.

Onlara qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq sosial təminat növləri, o cümlədən Prezidentin aylıq təqaüdləri, müavinət və ya əmək pensiyaları, habelə uşaqlarına, eləcə də əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə müavinətlər təyin olunub. Şəhid ailələrinə birdəfəlik ödəmələr verilib, onlar üçün Prezidentin aylıq təqaüdünün məbləği mütəmadi olaraq artırılıb. Cari ildə bu sahədə növbəti mühüm addım kimi fevralın 1-dən həmin təqaüd 300 manata çatdırılıb. Eləcə də müharibə əlilləri kimi, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi, o cümlədən Aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün də müavinət və təqaüdlər aprelin 1-dən 100 faizədək artırılıb.

Onu da əlavə edək ki, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin reabilitasiyasına xüsusi qayğı göstərilir. Dövlət tərəfindən şəhid olanların ailələrinin, müharibə əlillərinin digər sahələrdə də qayğı ilə təmin olunması üçün müvafiq işlər görülür.

## Şəhid ailələrinin kreditləri bankların vəsaiti hesabına ödəniləcək

Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin geniş tərkibdə keçirilən iclasında qəbul olunan qərar da ölkə ictimaiyyəti tərəfindən çox yüksək dəyərləndirilib.

Belə ki, iclasda yekdilliklə Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin bir nəfər ailə üzvünün banklara 360 gündən artıq gecikməsi olan 1000 (min) AZN qədər kreditlərinin (faiz borcu daxil olmaqla) bankların öz vəsaitləri hesabına ödənilməsi barədə qərar qəbul edilib.

Bundan sonra da banklara bu istiqamətdə əlavə güzəştlər edilməsi imkanlarının araşdırılması tövsiyə edilib.

## Bu il sosial inkişaf dövrü kimi başqa illərdən fərqlənəcək

Göründüyü kimi, son 3 ayda Prezidentin böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən sənədlərdir.

Bir çox kateqoriyalara aid insanların müavinət və təqaüdlərinin artırılması bir daha təsdiq edir ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənəcək.

Prezident İlham Əliyevin söylədiyi kimi, əgər 2017-ci il iqtisadi sabitləşmə, 2018-ci il isə dərin iqtisadi islahatlar ili olubsa, 2019-cu il həm sosial islahatlar ili, həm də iqtisadi artımın yüksək templərlə təmin ediləcəyi dövr kimi tarixə yazılacaq.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Mehriban xanım ƏLİYEVA:

# "Fəxr edirəm ki, belə qardaşlarım var"

## Birinci vitse-prezident Aprel döyüşlərinin qəhrəmanlarına bu cür müraciət etdi



2016-cı ilin zəfərli Aprel döyüşlərində şəhid olmuş əsgər və zabitlərin ailələrinə, sağlamlığını itirmiş hərbçilərin səhhətinin yaxşılaşdırılmasına qayğı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir. Bu günlərdə Heydər Əliyev Mərkəzində savaş qəhrəmanları ilə keçirilən görüşdə onlarla səmimi söhbət etməsi, qeydlərinə qalması bir daha göstərdi ki, Aprel döyüşçülərinə qayğı Birinci vitse-prezidentin xalq və dövlət naminə çoxşaxəli fəaliyyətinin ayrılmaz hissəsidir.

Üç il əvvəli - Azərbaycanın birinci xanımının xalqımızın həyatındakı o günlərdə qələbə, qürur və bunları bizə bəxş edərək şəhidlik zirvəsinə yüksəlmiş oğullarımız üçün yaşadığımız kədər dolu olaylara münasibətini xatırlayaq. Heydər məscidində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın adından şəhid olmuş hərbçilərə ehsan verildi. Tədbirin rəsmi adı belə idi. Əslində isə Azərbaycanın birinci xanımı öz ciyərparasını itirmiş anaların, körpəsi atasız qalmış gəlinlərin dərdinə şərik çıxması, kədərini bölməsi və bütün bunlarla bahəm onlara təsəlli verməsi, vətən yolunda qəhrəmanlıq göstərmiş əzizləri üçün qürur keçirməli olduqlarını deməsi idi. Bunları deyərkən özünü də qəhər boğdu, kövrəldiyini gizlədə bilmədi. Bu da qadın, ana, bacı qəlbinə xas olan əlamətdir...

Çətin məqamda, kədərli anda hər kəsin yanında ən yaxın adamı olar. Dərdli insanın göz yaşını həmişə ya bacısı silər, ya da anası. Şəhid ailələrinin o çətin günündə Mehriban xanım bunu da etdi, böyük Analıq missiyasını bu dəfə də qəlbindən qaynaqlanan bir təbiiliklə yerinə yetirdi.

Bu il aprelin 3-də keçirilən görüşdə də Mehriban xanım Əliyeva savaş qəhrəmanlarına əsl Azərbaycan qadınına xas olan bacı canıyananlığı, bacı qüruru ilə onlara "qardaşım" dedi: "Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var. Mən hər zaman deyirəm ki, Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma bizim ən böyük sərvətimiz Azərbaycan xalqıdır, Azərbaycan insanıdır. Doğrudan da, Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib".

Azərbaycanın Birinci vitse-prezidentinin bu sözləri öz bəhrəsini verən çoxsaylı əməli tədbirlərlə təsdiq olunur. Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini xatırlatmaq kifayətdir. Belə ki, 2017-ci ildə Heydər Əliyev Fondunun və müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə yaradılan işçi qrupu 2016-cı il Aprel döyüşləri zamanı yaralanmış və protezləşməyə ehtiyacı olan hər bir əsgər və zabitlə görüşlər keçirib. Onlara fərdi yanaşma tətbiq olunub. Nəticədə əsgər və zabitlərin fərdi xüsusiyyətləri, onların aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və protezlərə olan fərdi tələbləri təhlil edilib. Hərbçilər üçün dünyada müasir protez istehsalçısı olan ən qabaqcıl şirkətlərin yüksək texnologiyalı məhsulları seçilib.

Məsələyə tibbi baxımdan yanaşdıqda qeyd etmək lazımdır ki, bu protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəkət uyğunluğu yaradır. Bunun sayəsində ayaq, yaxud əl protezlə maksimum uyğunlaşır. İstifadəçi protezi bədəninin itirilmiş hissəsinin davamı kimi hiss edir, rahat addım ata, fəal hərəkət edə bilir.

Təqdirəlayiq haldır ki, Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq keçən il və bu ilin əvvəlindən daha bir qrup əlil yüksək texnologiyalı protezlərlə təmin edilib. Ümumilikdə isə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq fəal həyat tərzinə qayıdıb və əmək fəaliyyəti göstərir.

Bu il aprelin 3-də keçirilən görüşün iştirakçılarına Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müraciətində deyildiyi kimi: "Azərbaycan dövləti və xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin sağlamlığınızın bərpası və normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti bütün lazımi addımları atır və bundan sonra da atacaqdır".

**Flora SADIQLI,**
**"Azərbaycan"**

# Mərhəmətin sonu olmur

Fevral ayının 5-6-da ölkə ərazisində baş verən zəlzələ Ağsuda da müəyyən fəsadlar törətdi. Təbii fəlakət nəticəsində rayonda çox sayda evlər bu və ya digər dərəcədə zədələndi.





Lakin elə ilk saatlardan Prezident İlham Əliyevin tapşırığı ilə rayon icra hakimiyyətinin və Fövqəladə Hallar Nazirliyinin məsul işçilərin vətəndaşların yanında olması, onlara həm maddi, həm də mənəvi dəstək vermələri insanları xeyli ümidləndirdi. Onlar bir daha əmin oldular ki, arxasız deyillər.

Rayon icra hakimiyyətinin məlumatına görə, rayon üzrə zəlzələ ilə bağlı vətəndaşlardan 1899 müraciət daxil olub. Ərizələrin sayı şəhər üzrə 650, kəndlər üzrə 1108, kəskin qəzalı hesab edilmiş evlərin sayı 197-dir. Bunların 50-si şəhərdədir və hazırda 3 ailə üçün dövlət hesabına evlər tikilir. Kəndlərdə isə 147 ev daha çox zədələnmişdir. Belə evlər əsasən, Kalva, Nuran, Xatman, Dilman, Aratlı Curuğlu, Gəgəli, Qaraqaşlı, Bico, Muradlı və Nüydü kəndlərindədir. Bərpaya ehtiyacı olan evlərin sayı 307-dir. Onların 80-i şəhərdə, 227-si kəndlərdədir. Təmirə ehtiyacı olan evlərin sayı 1232-dir.

Martın 6-da Prezident İlham Əliyevin Ağsu rayonuna etdiyi səfər, burada yerli sakinlərlə görüşləri, yeni tikilən evlərdə aparılan inşaat işləri ilə şəxsən maraqlanması ağsuluların yaddaşından heç zaman silinməyəcək. Belə insanlardan biri Həcər Zamanovadır. Bu çöhrəsi nurlu qadının 9 övladı olub. İndi onlardan dördü həyatdadır.

Həcər xanım şəhid anasıdır. Oğlu Aqil 1993-cü ildə Ağdam uğrunda gedən döyüşlərdə şəhid olub. Aqil toyundan cəmi 8 gün sonra müharibəyə getmişdi... Ondan yadigar bir qız övladı qalıb. Həcər ana dövlətdən çox razıdır. Deyir ki, oğlunun ailəsinə əlillər binasından ev ayrılaraq hər cür şərait yaradılıb. Həyat yoldaşı dünyasını dəyişdikdən zonra əvvəl övladlarını, sonra nəvələrini böyüdüb ərsəyə çatdırmaq üçün bütün çətinliklərə qatlanıb. Üzüm sahəsindən tutmuş xəstəxanada xadiməyə kimi çalışıb.

Həcər ana ölkə rəhbəri ilə görüşməsini, onun diqqət və qayğısını ulu Yaradanın bir lütfü, çəkdiyi əziyyətlərin qiymətləndirilməsi, mükafatlandırılması kimi qəbul edir. Deyir ki, əvvəlki evi 3 otaqdan və mətbəxdən ibarət idi. Lakin zəlzələ nəticəsində ev uçub yararsız vəziyyətə düşdü. Zəlzələdən az sonra həm rayon icra hakimiyyətindən, həm də Fövqəladə Hallar Nazirliyindən nümayəndələr onları kirayə evlə təmin etdilər. Qərar da belə oldu ki, ev mütləq yenidən inşa olunmalıdır. Köhnə ev söküldü və orada yenisinin təməli qoyuldu.

Həcər ana dövlətdən yerdən göyə qədər razıdır. Deyir ki, Prezident İlham Əliyev və onun xanımı Mehriban Əliyevanın atdıqları xeyirxah addımları, onların daim insanların yanında olub onların dərdlərinə şərik çıxmalarını qiymətləndirməmək olmaz:

- Bu ahıl yaşımda dövlət başçısını həyətimizdə gördüyüm anı heç zaman unutmaram. O, məndən istəyimi soruşdu. Mən də nəvəm Muradın gözünün xəstə olmasını və son 4 ildə aparmadığımız xəstəxana qalmadığını dedim. Yanındakı nümayəndəyə bu məlumatı qeyd etməsini tapşırdı. Həmin axşam saat 9 olmamış bizə zəng gəldi. Muradın telefonunu istədilər. Bundan bir qədər sonra nəvəm mənimlə danışaraq dedi ki, onu xəstəxanaya aparırlar. Son baxılan yer Gömrük Xəstəxanası oldu. Mən də orada idim. Emil həkim müayinədən sonra növbəti gün Muradı əməliyyat edəcəyini dedi. Lakin sonradan Mehriban xanım Əliyevanın göstərişi ilə Türkiyəyə aparılmasını məsləhət bildilər. İnanıram ki, tezliklə nəvəm ən yüksək səviyyədə müalicə olunacaq.

Ağsu şəhər sakini 90 yaşlı Gülarə Hökmrəvanın həyətində də olduq. Burada da inşaatçılar əvvəlki evin yerində yenisini tikirlər. Az müddət keçməsinə baxmayaraq, xeyli iş görülüb. Gülarə nənə xəstə olduğu üçün oğlu Tahir Hökmrəvanla həmsöhbət olduq. Bildirdi ki, zəlzələ zamanı 2 otaqdan ibarət ev yararsız vəziyyətə düşüb. Vəziyyətlə tanış olan rayon icra hakimiyyətinin nümayəndələri və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları bu evdə yaşamağın mümkünsüz olduğunu deyiblər. Sonra əlavə etdi ki, Prezident İlham Əliyevin Ağsuya gəlişinə kimi evin bünövrəsi qoyulmuşdu. Dövlət başçısı tikintinin gedişi ilə tanış olduqdan sonra müəyyən göstərişlərini verdi. Bir daha bu qayğıya görə dövlət başçısına minnətdarlıq edirik.

**Əli SƏLİMOV,**
**"Azərbaycan"**

# Hərbi güc Azərbaycandadır

## Cəbhədə yeni savaş başlasa, Ermənistan tarixinin ən böyük fəlakətini yaşayacaq

Əvvəli 1-ci səh.

Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, ordumuz təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edib istədiyi tədbiri görə bilsin.

İki gün əvvəl Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində hərbçilərlə görüşdə Prezident İlham Əliyev Aprel döyüşlərini böyük tarixi qələbə adlandırdı: *"Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır".*



## Ordumuz üçün nə lazımdırsa edilir və ediləcək

Ümumiyyətlə, güclü dövlətin əsas sütunlarından biri ordudur. Müasir beynəlxalq münasibətlər sisteminin real mənzərəsi də göstərir ki, məhz güc amili yaranan problemlərin həllində əsas rol oynayan vasitədir. Artıq bəşəriyyət elə bir dövrə gəlib çatıb ki, beynəlxalq hüquq və onun prinsipləri anlayışı tədricən aktuallığını itirməyə başlayıb. Bu gün ayrı-ayrı ölkələrin müxtəlif bəhanələrlə xarici hərbi müdaxilələrə məruz qalması bunun təzahürüdür.

Azərbaycan beynəlxalq hüququn subyekti kimi dünyada gedən bu cür neqativ prosesləri yaxından izləyir və özü üçün nəticələr çıxarır. Çünki respublikamız artıq 30 ildir hərbi təcavüzlə üz-üzədir və torpaqlarımızın 20 faizə qədəri Ermənistan tərəfindən işğal edilib. Bütün bu hadisələrdə ilk gündən beynəlxalq hüquq həmişə Azərbaycanın tərəfində olub. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin sülh danışıqları yolu ilə həlli istiqamətində atılan siyasi addımlar beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır. Lakin təəssüflə qeyd etməliyik ki, Minsk qrupu vasitəsilə aparılan sülh danışıqları hələ ki nəticəsiz qalmaqdadır.

Bu baxımdan Azərbaycanın yeganə həll olunmamış problemi ərazilərinin işğal altında olmasıdır. Ona görə Azərbaycanda ordu quruculuğu məsələləri daim gündəmdə olmaqla dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycanın son illərdəki sürətli inkişafı və maliyyə imkanlarının artması bu sahədə aparılan işlərin yeni keyfiyyət mərhələsinə qaldırılmasına təkan verib. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti sayəsində Silahlı Qüvvələrimizin əsasını təşkil edən bütün hərbi birləşmələrin döyüş qabiliyyəti yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, hərbçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Ötən 15 ildə Azərbaycanda həyata keçirilən ordu quruculuğu cəmiyyət həyatının bütün sahələrində baş verən yüksəlişin əsas səhifələrindən birini təşkil edib. Belə ki, ölkəmizin artan maliyyə imkanları nəticəsində ordumuz da güclənib, qüdrətlənib, döyüş imkanlarını ən müasir hərbi tələblər səviyyəsinə çatdırıb. Bu illərdə həyata keçirilən silahlanmada kəmiyyətlə yanaşı, keyfiyyətə də üstünlük verilib. Ordumuzun arsenalına xüsusən müasir hərbi sənayenin ən son texnologiyaları cəlb olunub ki, bununla da Azərbaycan Silahlı Qüvvələrinin modern hərbi gücə çevrilməsi baş verib.

Bu gün istifadəsində hədəfləri uzaqdan ən yüksək dəqiqliklə məhv edən yaylım atəş sistemləri var. Ən müasir tanklar, piyada döyüş maşınları, zirehli transportyorlar, zenit raket sistemləri, artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, taktiki raket və minaatan kompleksləri, ağır odatan sistemlər, pilotsuz uçuş aparatları və digər texnikalar Azərbaycana öz hərbi potensialını əhəmiyyətli dərəcədə yüksəltməyə imkan verib. O cümlədən hava hücumundan müdafiə sistemimiz hava məkanımızı inamlı şəkildə nəzarətdə saxlayır. Bu istiqamətdə ordumuzun döyüş qabiliyyəti ən yaxşı silah istehsalçılarının texnologiyaları ilə gücləndirilib.

İndiyədək keçirilmiş hər bir parad Azərbaycan Ordusunun arsenalının sürətlə dəyişdiyini, ən modern hərbi texnikanın silahlanmaya cəlb edildiyini göstərir. Prezident İlham Əliyev hərbçilərlə görüşdə bir daha bəyan etdi ki, ordumuz üçün nə lazımdırsa edirik və edəcəyik: *"Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Qeyd etdiyim kimi, sonuncu reytinqə əsasən Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi qüdrətimizi göstərdi. Ordumuz üçün ən müasir silahlar, texnikalar alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik".*

Silahlı Qüvvələrimizin imkan və qabiliyyətinin artırılması, qoşunların hərtərəfli və fasiləsiz maddi-texniki təminatının yüksəldilməsi məqsədilə yeni silahların, texnikanın, hərbi əmlakın alınması və hərbi hissələrdə silahlanmaya qəbul edilməsi istiqamətində işlərin görülməsi davamlı şəkildə aparılır. Müasir döyüş texnikaları ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələri döyüş qabiliyyəti ilə yanaşı, həm də yüksək nizam-intizama malikdir.

Bu cür yüksək keyfiyyət göstəricilərinə malik olan ordunun qarşısında Ermənistanın duruş gətirə bilməyəcəyi əlbəttə ki, gün kimi aydındır. Bunu vaxtaşırı ermənilərin özləri də etiraf edirlər. Lakin Ermənistanın başqa çıxış yolu da yoxdur və mövcud iqtisadi vəziyyəti ordunu yeni hərbi texnika ilə gücləndirməyə imkan vermir. Heç perspektivdə də bu ölkənin inkişafı üçün işıq görünmür. Bir sözlə, əgər qarşıda Aprel döyüşlərinə bənzər növbəti hadisə baş versə, Ermənistan tarixinin ən böyük fəlakətini yaşayacaq. Çünki İlham Əliyevin qeyd etdiyi kimi, iqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**




# Bakı "Formula-1"ə hazırdır

## Sürət yarışının ən möhtəşəm tribunaları paytaxtımızda qurulub

*Əvvəli 1-ci səh.*

Tamaşaçı tribunalarının bəziləri hazırdır, digərlərində isə tamamlama işləri gedir. Trek boyunca müxtəlif “Formula-1” lövhələrinin və piyada keçidlərinin quraşdırılması işləri aparılır.

Ümumilikdə isə Bakı Şəhər Halqasında 9 yerdə tribuna quraşdırılır. Bunlar aşağıdakılardır:

### Abşeron - əsas tribuna

Abşeron tribunası yarışı dəqiq və yaxından izləyə bilmək baxımından ən üstün mövqedə yerləşib. Komandaların avtoqarajları ilə üzbəüz yerləşən Abşeron tribunasına bilet alanlar yarışın yüksək adrenalin dolu başlanğıcına şahid olacaqlar.

Həmçinin həyəcanlı pit-stop əməliyyatlarını izləmək üçün ən yaxşı mövqeyə sahib olacaqlar. Bu tribunada olan yarış həvəskarları pit yolunu, start düzülüşünü və finiş xəttini yaxından izləyə biləcəklər. Bu tribunaların ən böyüyü olmaqla 5 sektordan ibarətdir.

### Xəzər tribunası

Muzey Mərkəzinin qarşısında və Bulvar tribunası ilə üzbəüz yerləşən Xəzər tribunasından izləyicilər bolidlərin start-finiş xəttinə doğru saatda 300 kilometri aşan sürət hərəkətini yaxından müşahidə edə biləcəklər.

### Bulvar tribunası

Dənizkənarı parkın Muzey Mərkəzi və Xəzər tribunası ilə üzbəüz hissəsində yerləşən Bulvar tribunasından da bolidlərin start-finiş xəttinə doğru saatda 300 kilometri aşan sürət hərəkətini izləmək imkanı olacaq.

### Sahil tribunası

Dənizkənarı park boyunca davam edən sürət xətti üzərində 20-ci döngədə yerləşən Sahil tribunasından tamaşaçılar yolun iki müxtəlif hissəsini eyni anda izləmək imkanına malik olacaqlar. Trekin bu tribunadan görünən hissəsində bolidlər həm soldan sağa doğru start-finiş istiqamətində tam sürətlə, həm də trekin digər tərəfində 5-ci və 6-cı döngələri asan keçmək üçün aşağı sürətlə hərəkət edəcəklər. Bu da, öz növbəsində, tamaşaçılara avtomobil və sürücüləri yaxından izləmək üstünlüyü verəcək.

### Muğam tribunası

Dənizkənarı parkda yerləşən Kukla Teatrının qarşısındakı Muğam tribunasından insanlar yolun çarpaz hissəsində görüşən bolidləri eyni anda müşahidə edə biləcəklər. Trekin Muğam tribunasının düz qarşısında yerləşən qismində bolidlər həm soldan sağa doğru start-finiş istiqamətində, həm də buna əks istiqamətdə, sağdan sola doğru 7-ci döngəyə tərəf, şəhərin tarixi hissəsinə dönənədək tam sürətlə hərəkət edəcəklər.

### İçərişəhər tribunası

Qala qapılarının yanında yerləşən İçərişəhər tribunası yarışı izləməklə yanaşı, qədim şəhərin gözəlliklərinə tamaşa etmək baxımından da unikal mövqeyə malikdir. Bu tribunada tamaşaçılar yarışı trekin İçərişəhər divarları boyu uzanan yoxuş yolunun ən hündür nöqtəsindən izləyəcəklər.

### Qız qalası tribunası

Qız qalası ilə üzbəüz yerləşən tribunada UNESCO-nun mədəni irsinə daxil edilmiş bu tarixi abidənin nadir mənzərəsi fonunda “F1” bolidlərinin yürüşünü seyr etmək imkanı yaranacaq. Bu tribunada olan yarış həvəskarları bolidlərin buradan 18-ci döngəyə tərəf son sürətlə hərəkətini və onların Qız qalasının tam qarşısından keçməklə sürət zolağı boyunca davam edəcək gərgin mübarizəsini izləyə biləcəklər.

### Azneft tribunası

Bu tribuna Azneft dairəsi ətrafında yarışı yaxından izləməyə imkan verən mükəmməl mövqedə yerləşir. Buraya bilet alan tamaşaçılar Dənizkənarı parkın Bakı tennis və yaxt klublarına yaxın olan hissəsində qərarlaşmış nəfəsçəkici 16-cı döngəni ən yaxşı yerdən müşahidə etmək imkanına malik olacaqlar. Trekin eniş hissəsinin düz qurtaracağında yerləşən Azneft tribunasında tamaşaçılar bolidlərin 16-cı döngəyə qədər amansız rəqabətini, kəskin dönüşlərini və döngənin ardınca sahil boyu uzanan sürət zolağında ötüşməsini əvəzolunmaz mövqedə izləyəcəklər. Tribuna aşağı və yuxarı hissələrdən ibarətdir.

### Filarmoniya tribunası

Filarmoniya tribunasında tamaşaçılar Filarmoniya bağının qarşısında, trekdəki kəskin enişin 16-cı döngəyə keçdiyi hissədə davam edən gərgin mübarizəni izləmək imkanına malik olacaqlar.

### Yeniliklərin tətbiq edildiyi Bakı trası

“Formula-1” yarışlarında Bakı yeniliyin tətbiqi ilə də yaddaşlara həkk olunub. Xatırladaq ki, 2016-cı ildəki dünya çempionatında “F1” Bakı mərhələsində sıralama turları ilə bağlı yenilik etmişdi. Belə ki, əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırılmışdı. 10 pilot isə 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start vermişdi. Bakı mərhələsində tətbiq edilən yeni qaydalarda isə seansın sonunda yox, 90 saniyədən bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulmuşdu.

Məhz Bakıdakı yenilik son 3 mövsümdür “Formula-1” mütəxəssislərinin rəylərinə görə, yarışlarda həyəcanı bir qədər də artırıb.

“Formula-1” yarışlarında mübarizə aparan ən məşhur pilotlar da Bakıda bu yarışın ən yeni və ən sürətli şəhər treki sayılan Bakı Şəhər Halqasında növbəti dəfə yarışmağı həyəcanla və səbirsizliklə gözləyirlər. Pilotların trekdən qalib ayrılmaq üçün bütün güclərini səfərbər edəcəkləri hiss olunur.

Valteri Bottas, Daniel Rikkardo, Maks Ferstappen, Felipe Massa, Serxio Perez və digər pilotları gözoxşayan mənzərəyə sahib olan Bakıda həyəcanlı və çətin yarış gözləyir. “Formula-1” təqvimində Bakı Şəhər Halqasını özünəməxsus edən ensiz hissələr, 90 dərəcəli döngələr, yoxuşlar və uzun sürətlənmə hissələri enli təkərli bolidlər üçün mübarizə şərtlərini ötən illərlə müqayisədə daha da maraqlı edəcək.

*Elçin CƏFƏROV,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*“Azərbaycan”*


























# Mediasiya haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərinə uyğun olaraq, mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.

### 1-ci fəsil. Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. mediasiya - mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı bu qanunla müəyyən olunan proses;

1.0.2. tərəflər - hüquqi və fiziki şəxslər (o cümlədən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər), habelə mediasiya prosesinin tətbiqinə razılıq vermiş inzibati orqanlar;

1.0.3. mediator - peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, bu qanunun tələblərinə cavab verən fiziki şəxs;

1.0.4. mediasiya təşkilatı - bu qanunun 11.1-ci maddəsində müəyyən edilmiş hüquqi şəxs;

1.0.5. mediasiya iştirakçıları - mediator və tərəflər;

1.0.6. mediasiyada iştirak edən digər şəxslər - mediasiya prosesində iştirak edən vəkillər, nümayəndələr, tərcüməçilər, ekspert və mütəxəssislər, mediasiya təşkilatının əməkdaşları, habelə tərəflərin razılığı ilə mediasiya prosesində iştirak edən digər şəxslər;

1.0.7. barışıq sazişi - tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən yazılı razılaşma;

1.0.8. mediasiya prosesinin tətbiqi barədə müqavilə - mübahisənin (mövcud və ya gələcəkdə yarana biləcək) mediasiya prosesi vasitəsilə həlli üçün tərəflər arasında bağlanan yazılı razılaşma;

1.0.9. mediasiyaya dair qeyd-şərt - tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə olan şərt;

1.0.10. mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə - mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında mediasiya xidmətlərinin göstərilməsi üçün imzalanan yazılı müqavilə;

1.0.11. mübahisə - tərəflər arasında yaranmış (və ya yarana biləcək) bu qanunun 3.1-ci maddəsində nəzərdə tutulmuş mübahisə.

**Maddə 2. Mediasiya haqqında qanunvericilik**

2.1. Mediasiya haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, bu qanundan, digər normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Ələt azad iqtisadi zonasında mediasiya sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Mediasiyanın tətbiq dairəsi**

3.1. Mediasiya aşağıdakılar üzrə tətbiq edilir:

3.1.1. mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla);

3.1.2. ailə münasibətlərindən irəli gələn mübahisələr;

3.1.3. əmək münasibətlərindən irəli gələn mübahisələr;

3.1.4. inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.

3.2. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə bu qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

3.3. Bu qanunun 3.1-ci maddəsində nəzərdə tutulan mübahisələr mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunduqda belə mübahisələr üzrə mediasiya keçirilə bilməz. Həmin hallar aşkar edildikdə mediator (mediasiya təşkilatı), tərəflər və ya onlardan biri həmin mübahisələr üzrə mediasiya prosesindən imtina edirlər.

3.4. Mediasiya prosesinin nəticəsində barışıq sazişi bağlanmadığı hallarda məhkəmədən əvvəl mediasiya prosesi ilə bağlı xərclərin öz üzərinə düşən hissəsini ödəmiş tərəfin və ya bu qanunun 36.2-ci maddəsinə uyğun olaraq mediasiya xərclərini ödəmiş tərəfin məhkəməyə müraciət edərkən dövlət rüsumundan azad olunması məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Məhkəməyə müraciət etdikdən sonra tərəflər arasında mediasiya prosesinin nəticəsində barışıq sazişi imzalanarsa, ödənilmiş dövlət rüsumu Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq geri qaytarılır.

3.5. Məhkəmələrin inzibati binalarında onların yerləşdikləri ərazilərə yaxın yerlərdə fəaliyyət göstərən mediatorlar və mediasiya təşkilatları barədə məlumat lövhələri yerləşdirilməlidir. Mediasiya Şurası mediasiya reyestrində dəyişikliklər baş verdikcə həmin məlumat lövhələrindəki informasiyanın müvafiq məhkəmələr tərəfindən daim yenilənməsinin həyata keçirilməsini təmin etməlidir.

**Maddə 4. Mediasiyanın məqsəd və prinsipləri**

4.1. Mediasiya tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşıyır.

4.2. Mediasiya aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

4.2.1. könüllülük;

4.2.2. tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı;

4.2.3. mediatorların qərəzsizliyi və müstəqilliyi;

4.2.4. mediasiya prosesinə müdaxilənin yolverilməzliyi;

4.2.5. konfidensiallıq.

**Maddə 5. Könüllülük**

5.1. Mediasiya könüllü (bu qanunun 28-ci və 29-cu maddələri nəzərə alınmaqla) xarakter daşıyır və tərəflər mediatorun seçilməsində sərbəstdirlər.

5.2. Mediasiya tərəflərin qarşılıqlı razılığı ilə bağlanan "mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında (bu qanunun 21.1-ci maddəsi nəzərə alınmaqla) həyata keçirilir.

5.3. Mediasiya zamanı tərəflər öz mülahizələrinə əsasən maddi və prosessual hüquqlarından istifadə edirlər, habelə tələblərinin həcmini artırmaq və ya azaltmaq, bu qanunun 28-ci və 29-cu maddələrinin tələbləri nəzərə alınmaqla mediasiyanın istənilən mərhələsində mediasiyadan imtina etmək hüquqlarına malikdirlər.

**Maddə 6. Tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı**

6.1. Tərəflər mediasiya zamanı bütün məsələlərdə, o cümlədən mediatorun seçilməsində bərabər hüquqlardan istifadə edirlər və bərabər vəzifələr daşıyırlar.

6.2. Tərəflər mediasiyanın məqsədləri naminə əməkdaşlıq etməli və qarşılıqlı şəkildə fəaliyyət göstərməlidirlər.

6.3. Mediasiya mübahisənin həllində tərəflərin əməkdaşlığına, habelə ünsiyyət və danışıqlara əsaslanır.

**Maddə 7. Mediatorların müstəqilliyi, qərəzsizliyi və mediasiya prosesinə müdaxilənin yolverilməzliyi**

7.1. Mediasiya zamanı mediator müstəqil və qərəzsiz olmalıdır. Mediator mediasiya prosesini həyata keçirən zaman tərəflərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən asılı olmamalıdır və mediasiya zamanı adıçəkilən orqanların və şəxslərin mediatorun fəaliyyətinə müdaxiləsinə yol verilmir.

7.2. Mediator mediasiya zamanı hər iki tərəfə bərabər yanaşmalı, tərəflərin mediasiya zamanı bərabər iştirakını təmin etməli və hər iki tərəfə proses zamanı tələblərini təqdim etmək üçün bərabər imkanlar yaratmalıdır. Mediatorun qərəzsizliyinə mane olan hallar olduqda mediator mediasiyanı aparmaqdan imtina etməlidir.

**Maddə 8. Konfidensiallıq**

8.1. Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, mediasiya qapalı keçirilir.

8.2. Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, həmçinin barışıq sazişinin təsdiqi və icrası məqsədi ilə tələb olunan hallar istisna olmaqla, mediasiya zamanı əldə olunan bütün məlumatların (o cümlədən, tərəflərdən birinin mediasiyanın həyata keçirilməsi barədə təşəbbüsü, mediasiyaya və mübahisənin mümkün həll variantına razılıq verməsi, tərəflərdən birinin və ya mediatorun mübahisənin mümkün həllinə dair rəy və ya təklifləri, mediasiya zamanı tərəflərdən birinin verdiyi bəyanatları və ya etdiyi etirafları, mediasiyanın həyata keçirilməsi məqsədi ilə tərtib olunmuş sənədlər və s.) konfidensiallığı mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən qorunur.

8.3. Mediasiya iştirakçılarının və mediasiyada iştirak edən digər şəxslərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək hüququ yoxdur (həmin məlumatı verən tərəfin yazılı razılığı olduğu hallar istisna olmaqla) və belə məlumatlarla bağlı həmin şəxslər şahid qismində iştirak edə bilməzlər.

8.4. Bu qanunun 8.2-ci, 8.3-cü və 8.5-ci maddələri mediasiya zamanı ağır və xüsusilə ağır cinayət hadisələri haqqında əldə olunan məlumatların verilməsi, habelə cinayət mühakimə icraatı zamanı mediasiyaya aid məlumatların açıqlanması vəzifəsinin məhkəmə qərarı ilə müəyyən edilməsi hallarına şamil olunmur.

8.5. Mediatorun və mediasiya təşkilatının müvafiq fəaliyyətini həyata keçirmək hüququ dayandırıldıqdan və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılmasından sonra da mediasiya zamanı əldə olunmuş məlumatların konfidensiallığının qorunması təmin olunmalıdır.

8.6. Mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən bu qanunun 8-ci maddəsində nəzərdə tutulmuş konfidensiallıqla bağlı qaydaların pozulması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 9. Tərəflərin hüquq və vəzifələri**

9.1. Tərəflərin aşağıdakı hüquqları vardır:

9.1.1. bu qanunun 5-ci və 6.1-ci maddələrində nəzərdə tutulan hüquqlar;

9.1.2. mediasiya təşkilatını və ya mediatoru seçmək və onlardan imtina etmək;

9.1.3. mediasiyanın aparılmasında şəxsən və ya etibarnamə əsasında təmsilçi vasitəsilə iştirak etmək;

9.1.4. mediasiya prosesi və onun mümkün nəticələri barədə məlumat almaq;

9.1.5. bu qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

9.2. Tərəflər qarşılıqlı razılaşma əsasında bu qanuna uyğun olaraq, mediasiya prosesinin tətbiqinin, onun həyata keçirilməsinin və başa çatdırılmasının bütün şərtlərini sərbəst şəkildə müəyyən edə bilərlər.

9.3. Tərəflərin aşağıdakı vəzifələri vardır:

9.3.1. barışıq sazişinin icrasını təmin etmək;

9.3.2. mediasiya prosesinin konfidensiallığını qorumaq;

9.3.3. bu qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

### 2-ci fəsil. Mediatorun fəaliyyəti

**Maddə 10. Mediatora dair tələblər**

10.1. Mediator olmaq istəyən fiziki şəxs aşağıdakı tələblərə cavab verməlidir:

10.1.1. ali təhsilə malik olmalıdır;

10.1.2. 25 yaşı tamam olmalıdır;

10.1.3. ən azı 3 illik iş stajına malik olmalıdır;

10.1.4. mediatorların ilkin hazırlığı üzrə təlimi bitirərək bu qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş sertifikatı əldə etməlidir;

10.1.5. bu qanunun 17.5-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq müddətin keçməsi gözlənilməlidir.

10.2. Aşağıdakı fiziki şəxslər mediator ola bilməzlər:

10.2.1. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər;

10.2.2. barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;

10.2.3. məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər.

10.3. Bu qanunun 10.2-ci maddəsində göstərilən hallar olmadıqda, bu qanunun 10.1-ci maddəsində göstərilən tələblərə cavab verən fiziki şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediator fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edir.

10.4. Mediator qanunla qadağan olunmayan istənilən digər fəaliyyətlə məşğul ola bilər.

**Maddə 11. Mediasiya təşkilatı**

11.1. Mediasiya təşkilatı mediasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədi ilə, mediasiya xidmətlərinin marketinqini, əmək müqaviləsi və ya müvafiq mülki-hüquqi müqavilə bağladığı mediatorların xidmətləri üçün haqqın və digər xərclərin ödənilməsinə dair qaydanı müəyyən edən, mediasiya zamanı danışıqların aparılması üçün şərait yaradan, bu qanunla və ya tərəflərin razılığı ilə müəyyən edildiyi hallarda mediasiya prosesini aparmaq üçün mediatorları təyin edən, habelə mediatorların effektiv fəaliyyətinə yönələn digər tədbirlər həyata keçirən hüquqi şəxsdir.

11.2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınmış hüquqi şəxs mediasiya təşkilatı ola bilər.

11.3. Hüquqi şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediasiya təşkilatı kimi fəaliyyət göstərmək hüququ əldə edir. Mediasiya Şurasının üzvlüyünə qəbul edilməsi üçün hüquqi şəxs aşağıdakı tələblərə cavab verməlidir:

11.3.1. ən azı iki mediatorla (onlardan əz azı biri ali hüquq təhsilli olmalıdır) əmək müqaviləsi olmalıdır;

11.3.2. mediator tərəfindən göstərilən mediasiya xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi üçün təsdiq olunmuş qaydaya malik olmalıdır;

11.3.3. istifadəsində ən azı iki otaqdan ibarət ofisi olmalıdır;

11.3.4. bu qanunun 11.8-ci maddəsində nəzərdə tutulmuş hallar olduğu halda, müvafiq müddətin keçməsi gözlənilməlidir.

11.4. Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququ aşağıdakı hallarda dayandırılır:

11.4.1. mediasiya təşkilatı tərəfindən ərizə təqdim edildikdə (o cümlədən mediasiya təşkilatının hüquqi şəxs kimi fəaliyyəti dayandırıldığı halda);

11.4.2. bu qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair Mediasiya Şurasının qərarını yerinə yetirmədikdə (pozuntunun aradan qaldırılması üçün zəruri olan müddət nəzərə alınmaqla 1 aydan 6 ayadək müddətə).

11.5. Mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən aşağıdakı hallarda çıxarılır:

11.5.1. mediasiya təşkilatı tərəfindən müvafiq ərizə təqdim edildikdə;

11.5.2. mediasiya təşkilatı ləğv edildikdə;

11.5.3. hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması ilə bağlı məhkəmənin müvafiq qərarı olduqda;

11.5.4. Mediasiya Şurasının üzvlüyünə daxil olmaq məqsədi ilə təqdim etdiyi sənədlərdə və məlumatlarda sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə;

11.5.5. mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırıldığı müddətin bitməsinə ən azı 1 iş günü qalmış bu qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasının nəticəsi barədə Mediasiya Şurasına yazılı məlumat vermədikdə;

11.5.6. üzvlük haqqını altı aydan artıq müddətdə üzrsüz səbəbdən ödəmədikdə.

11.6. Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılması Mediasiya Şurasının qərarı (bu qanunun 11.5.5-ci və 11.5.6-cı maddələrinə əsasən çıxarılması isə yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı) ilə həyata keçirilir və belə qərarlar qüvvəyə mindiyi tarixdən həmin mediasiya təşkilatı barəsində mediasiya reyestrində müvafiq qeydlər aparılır.

11.7. Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırılmasına əsas olmuş bu qanunun 11.4.2-ci maddəsində göstərilmiş hallar aradan qalxdıqda mediasiya təşkilatının bu qanunun 11.5.5-ci maddəsində müəyyən edilmiş müddət ərzində etdiyi yazılı müraciət əsasında Mediasiya Şurası tərəfindən onun fəaliyyətinin bərpa olunması haqqında 5 gün müddətində qərar qəbul olunur.

11.8. Mediasiya Şurasının üzvlüyündən bu qanunun 11.5.4-cü və 11.5.6-cı maddələrinə əsasən çıxarılmış hüquqi şəxs və ya həmin hüquqi şəxsin təsisçisinin təsis etdiyi digər hüquqi şəxs bu qərar qüvvəyə mindiyi tarixdən 1 il keçdikdən sonra Mediasiya Şurasının üzvlüyünə qəbul olunmaq üçün bu qanunla müəyyən edilmiş qaydada Mediasiya Şurasına müraciət edə bilər.

**Maddə 12. Mediatorun hüquq və vəzifələri**

12.1. Mediatorun aşağıdakı hüquqları vardır:

12.1.1. öz istəyi əsasında fərdi qaydada və ya mediasiya təşkilatı vasitəsilə mediasiya fəaliyyətini həyata keçirmək;

12.1.2. tərəflərlə razılaşdırılmış xidmət haqqı almaq;

12.1.3. mediasiya prosesində hər iki tərəflə birgə və ya ayrı-ayrılıqda görüşlər keçirmək, əməkdaşlıq etmək, onlara şifahi və yazılı tövsiyələr vermək;

12.1.4. konfidensiallıq prinsipini gözləməklə ictimaiyyəti öz fəaliyyəti haqqında məlumatlandırmaq;

12.1.5. nümayəndə ilə təmsil olunan tərəflə nümayəndəni məlumatlandırmaqla birbaşa əlaqə saxlamaq;

12.1.6. bu qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

12.2. Mediatorun aşağıdakı vəzifələri vardır:

12.2.1. bu qanunla müəyyən olunan mediasiya prinsiplərinə riayət etmək;

12.2.2. iki ildə bir dəfədən az olmayaraq təşkil olunan ixtisasartırma kurslarında iştirak edərək müvafiq sertifikat almaq;

12.2.3. mediasiya zamanı tərəflərin razılığı çərçivəsində hərəkət etmək;

12.2.4. mediasiya başlanana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini izah etmək;

12.2.5. mediasiya bitdikdən sonra tərəflərin ona verdiyi sənədləri geri qaytarmaq;

12.2.6. bu qanunun 20.1.5-ci maddəsində nəzərdə tutulmuş qaydalara əməl etmək;

12.2.7. Mediasiya Şurası tərəfindən bu qanuna uyğun olaraq qəbul olunan qərarları icra etmək;

12.2.8. bu qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

12.3. Mediator tərəflərə hüquqi və ya digər xidmət göstərə və ya mediasiya predmeti olan mübahisə üzrə məhkəmə və ya arbitraj (münsiflər məhkəməsi) prosesində tərəflərdən hər hansı birini təmsil edə və arbitr (münsif) qismində çıxış edə bilməz.

**Maddə 13. Mediatora etiraz**

13.1. Mediasiya zamanı tərəflər qarşılıqlı razılıq əsasında mediatoru başqa mediator ilə əvəz etmək hüququna malikdirlər.

13.2. Mediator bu qanunla müəyyən olunan mediasiya prinsipləri əsasında mediasiyanı həyata keçirə bilmədikdə dərhal özü-özünə etiraz etməlidir.

13.3. Mediator mediasiyanın davam etdirilməsinin mübahisənin həllinə gətirməyəcəyi qənaətinə gələrsə, mediasiyanı aparmaqdan imtina edə və ya tərəflərin yazılı razılığı ilə mediasiyanın prosesinə xitam verə bilər.

**Maddə 14. Mediatorların ilkin hazırlığı və ixtisasının artırılması**

14.1. Mediator olmaq istəyən şəxslərin ilkin hazırlığı, həmçinin mediatorların ixtisasının artırılması mediasiya təlimi qurumunda həyata keçirilir.

14.2. Mediatorların ilkin hazırlığı üzrə təlimi bitirmiş şəxslərə, həmçinin ixtisasartırma kursunu bitirmiş mediatorlara mediasiya təlimi qurumu tərəfindən müvafiq sertifikat verilir.

14.3. Mediasiya təlimi qurumunda təlim mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasına uyğun olaraq həyata keçirilir.

14.4. Mediasiya təlimi qurumuna bu qanunun 11.2-ci və 11.4-11.8-ci maddələrin tələbləri şamil olunur. Bu qanunun 14.5-ci maddəsinin tələblərinə cavab verdiyi halda mediasiya təlimi qurumu qismində mediasiya təşkilatı da çıxış edə bilər.

14.5. Hüquqi şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediasiya təlimi sahəsində fəaliyyət göstərmək hüququ əldə edir. Mediasiya Şurasının üzvlüyünə mediasiya təlimi qurumu qismində qəbul edilməsi üçün hüquqi şəxs aşağıdakı tələblərə cavab verməlidir:

14.5.1. aşağıdakı göstərilən şəxslər kateqoriyasından ən azı ikisi ilə əmək müqaviləsi və ya müvafiq mülki-hüquqi müqaviləsi olmalıdır:

14.5.1.1. son 2 il ərzində ən azı 10 mediasiya işi aparmış ən azı 1 mediatorla;

14.5.1.2. son 6 ildə mediasiya üzrə (o cümlədən, mübahisələrin alternativ həlli fənninin tərkib hissəsi olaraq) azı 2 il pedaqoji staja malik və ya son 3 il ərzində beynəlxalq layihələr çərçivəsində ən azı 2 mediasiya təlimi aparmış 1 təlimçi ilə;

14.5.1.3. beynəlxalq mediasiya qurumlarının mediasiya sahəsində təşkil etdiyi mediasiya təlimçilərinin təlimindən keçməsi barədə müvafiq sertifikatı olan ən azı 1 təlimçi ilə;

14.5.2. ilkin hazırlıq və ixtisasartırma mediasiya dərsləri üzrə təfsilatlı proqrama malik olmalıdır;

14.5.3. bu qanunun 11.8-ci maddəsində nəzərdə tutulmuş hallar olduğu halda, müvafiq müddətin keçməsi gözlənilməlidir.

14.6. Xarici ölkələrdə bu qanunun 14.5.1.1-14.5.1.3-cü maddələrinə uyğun olaraq əldə edilmiş iş təcrübəsinin və ya sertifikatların tanınması məsələsi mediasiya reyestrinin aparılması qaydası ilə tənzimlənir.

**Maddə 15. Mediasiya reyestri**

15.1. Mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının siyahısının müəyyən edilməsi məqsədi ilə Mediasiya Şurası tərəfindən mediasiya reyestri aparılır.

15.2. Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları mediasiya reyestrində onlar barədə olan məlumatlarda baş vermiş dəyişikliklər barədə 30 gün müddətində Mediasiya Şurasına məlumat verməlidirlər.

15.3. Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları haqqında məlumatların mediasiya reyestrinə daxil edilməsi, həmin məlumatlarda dəyişikliklər edilməsi, həmçinin bu qanunun 14.6-cı maddəsində nəzərdə tutulmuş məsələləri özündə əks etdirən mediasiya reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15.4. Mediasiya reyestri açıqdır və Mediasiya Şurasının rəsmi internet səhifəsində yerləşdirilir və məlumatlar daim yenilənir.

**Maddə 16. Mediatorun intizam məsuliyyəti**

16.1. Mediator bu qanunun 12.2-ci və 12.3-cü maddələrində nəzərdə tutulan vəzifələrin pozulmasına görə intizam məsuliyyəti daşıyır. Mediatorun intizam məsuliyyətinə cəlb edilməsi barədə məlumat mediasiya reyestrinə daxil edilir və daxil edildiyi gündən 6 ay ərzində reyestrdə saxlanılır.

16.2. Yol verilmiş pozuntunun ağırlıq dərəcəsindən asılı olaraq mediatora qarşı aşağıdakı intizam məsuliyyəti tədbirləri tətbiq edilir:

16.2.1. xəbərdarlıq;

16.2.2. töhmət;

16.2.3. 1 aydan 6 ayadək müddətə mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması.

16.3. Mediatora qarşı intizam tədbirləri Mediasiya Şurasının qərarı ilə tətbiq edilir. Mediatora qarşı intizam tədbirləri pozuntunun baş verdiyi tarixdən 1 il müddətində tətbiq edilir. İntizam icraatının həyata keçirilməsi qaydası Mediasiya Şurası tərəfindən müəyyən olunur.

16.4. Mediator tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həll olunmamasına və ya barışıq sazişinin icra edilməməsinə görə məsuliyyət daşımır.

16.5. İntizam məsuliyyəti mediatoru bu qanunla müəyyən olunan vəzifələri pozması nəticəsində vurduğu zərərə görə mülki, inzibati və cinayət məsuliyyətindən, həmçinin işlədiyi mediasiya təşkilatı tərəfindən tətbiq edilən intizam məsuliyyətindən azad etmir.

**Maddə 17. Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya mediatorun Mediasiya Şurasının üzvlüyündən çıxarılması**

17.1. Mediator fəaliyyətini həyata keçirmək hüququ aşağıdakı hallarda dayandırılır:

17.1.1. öz arzusu ilə müvafiq ərizə təqdim etdikdə;

17.1.2. bu qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair Mediasiya Şurasının qərarını yerinə yetirmədikdə (pozuntunun aradan qaldırılması üçün zəruri olan müddət nəzərə alınmaqla 1 aydan 6 ayadək müddətə);

17.1.3. bu qanunun 16.2.3-cü maddəsində nəzərdə tutulmuş halda.

17.2. Mediator Mediasiya Şurasının üzvlüyündən aşağıdakı hallarda çıxarılır:

17.2.1. öz arzusu ilə müvafiq ərizə təqdim etdikdə;

17.2.2. barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

17.2.3. qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunması məhkəmə tərəfindən müəyyən edildikdə;

17.2.4. vəfat etdikdə;

17.2.5. məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

17.2.6. bu qanunun 12.2.2-ci maddəsinə uyğun olaraq ixtisasartırma kursunu müvafiq qaydada keçmədikdə;

17.2.7. bir il ərzində bu qanunun 16.2-ci maddəsində nəzərdə tutulan intizam məsuliyyəti tədbirləri azı 3 dəfə tətbiq edildikdə;

17.2.8. Mediasiya Şurasının üzvlüyünə daxil olmaq məqsədi ilə təqdim etdiyi sənədlərdə və məlumatlarda sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə;

17.2.9. mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırıldığı müddətin bitməsinə ən azı 1 iş günü qalmış bu qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasının nəticəsi barədə Mediasiya Şurasına yazılı məlumat vermədikdə;

17.2.10. üzvlük haqqını altı aydan artıq müddətdə üzrsüz səbəbdən ödəmədikdə.

17.3. Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılma Mediasiya Şurasının qərarı (bu qanunun 17.2.7-ci, 17.2.9-cu və 17.2.10-cu maddələrinə əsasən çıxarılma isə yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı) ilə həyata keçirilir və belə qərarlar qüvvəyə mindiyi tarixdən həmin mediator barəsində mediasiya reyestrində müvafiq qeydlər aparılır.

17.4. Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılmasına əsas olmuş bu qanunun 17.1.2-ci maddəsində göstərilmiş hallar aradan qalxdıqda mediatorun bu qanunun 17.2.9-cu maddəsində müəyyən edilmiş müddət ərzində etdiyi yazılı müraciət əsasında, həmçinin bu qanunun 16.2.3-cü maddəsində nəzərdə tutulmuş müddət bitdikdə Mediasiya Şurası tərəfindən mediatorun fəaliyyətinin bərpa olunması haqqında 5 gün müddətində qərar qəbul olunur.

17.5. Mediasiya Şurasının üzvlüyündən bu qanunun 17.2.2-ci, 17.2.7-ci, 17.2.8-ci və 17.2.10-cu maddələrinə əsasən çıxarılmış fiziki şəxs bu qərar qüvvəyə mindiyi tarixdən 1 il keçdikdən sonra (bu qanunun 17.2.2-ci maddəsində nəzərdə tutulmuş halda isə həmçinin məhkumluğun ödənilməsi və ya götürülməsi şərti ilə) Mediasiya Şurasının üzvlüyünə qəbul olunmaq üçün bu qanunla müəyyən edilmiş qaydada Mediasiya Şurasına müraciət edə bilər.

### 3-cü fəsil. Mediasiya Şurasının fəaliyyəti

**Maddə 18. Mediasiya Şurası**

18.1. Mediasiya Şurası bu qanunun 20.1-ci maddəsində nəzərdə tutulmuş funksiyaların həyata keçirilməsi məqsədilə, mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsdir.

18.2. Mediasiya Şurası bu qanuna, digər normativ hüquqi aktlara və nizamnaməsinə uyğun olaraq təşkil olunur və fəaliyyət göstərir.

**Maddə 19. Mediasiya Şurasının əmlakı**

19.1. Mediasiya Şurasının mülkiyyətində (istifadəsində) qanunla qadağan olunmayan növlərdə əmlak ola bilər.

19.2. Mediasiya Şurasının əmlakı üzvlük haqlarından, qrantlardan, ianələrdən və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

19.3. Mediasiya Şurasının üzvləri üçün üzvlük haqqının məbləği, bu məbləğin ödənilməsi müddəti və qaydaları Şuranın nizamnaməsi ilə müəyyən olunur.

**Maddə 20. Mediasiya Şurasının funksiyaları**

20.1. Mediasiya Şurası aşağıdakı funksiyaları həyata keçirir:

20.1.1. mediasiya sahəsində tənzimləməni və nəzarəti həyata keçirir;

20.1.2. mediasiyanın inkişafı ilə bağlı tədbirlər görür, bu sahədə dövlət proqramlarının və normativ hüquqi aktların layihələrinin hazırlanmasını təşkil edir və ya hazırlanmasında iştirak edir;

20.1.3. mediator fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin ilkin hazırlığı üzrə təlimin və mediatorların ixtisasartırma kurslarının mediasiya təlimi qurumları tərəfindən keçirilməsi ilə bağlı tədbirlər görür;

20.1.4. mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının reyestrini aparır;

20.1.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasına, mediasiya reyestrinin aparılması qaydasına, mediatorların peşəkar etik davranış qaydasına, mediasiya prosesinin həyata keçirilməsi qaydasına dair təkliflər hazırlayır;

20.1.6. mediasiya prosesi ilə bağlı sənədlərin, o cümlədən protokol və arayışların formalarını hazırlayır və təsdiq edir;

20.1.7. mediasiya təşkilatlarından, mediatorlardan və mediasiya təlimi qurumlarından statistik məlumatları toplayır və təhlil edir;

20.1.8. üç ildə bir dəfədən az olmayaraq mediasiya sisteminin səmərəliliyini təhlil edir, bundan irəli gələrək müvafiq təkliflər verir və digər tədbirlər görür;

20.1.9. mediasiya sahəsində konfranslar və təşviqat tədbirlərinin keçirilməsini təşkil edir;

20.1.10. mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının fəaliyyəti ilə əlaqədar daxil olan müraciətlərə baxır;

20.1.11. mediasiya təşkilatı, mediator və mediasiya təlimi qurumu tərəfindən bu qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair qərar qəbul edir;

Ardı 6-cı səh.

# Mediasiya haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 5-ci səh.*

20.1.12. mediatorların intizam məsuliyyətinə cəlb olunması barədə qərar qəbul edir;

20.1.13. mediatorların, mediasiya təşkilatlarının və mediasiya təlimi qurumlarının müvafiq fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və Mediasiya Şurasının üzvlüyündən çıxarılması barədə qərarlar qəbul edir, bu qanunun 11.6-cı və 17.3-cü maddələrində nəzərdə tutulmuş hallarda isə məhkəmə qarşısında müvafiq məsələ qaldırır;

20.1.14. intizam icraatının həyata keçirilməsi qaydasını müəyyən edir;

20.1.15. mediasiya fəaliyyəti haqqında informasiya və statistik xarakterli hesabatı rübdə bir dəfə ictimaiyyətə açıqlayır;

20.1.16. bu qanunla və nizamnaməsi ilə müəyyən olunmuş digər funksiyaları həyata keçirir.

20.2. Mediasiya təşkilatı, mediator və mediasiya təlimi qurumu Mediasiya Şurasının qərarlarından, digər hərəkət və hərəkətsizliyindən məhkəməyə şikayət verə bilərlər.

### 4-cü fəsil. Mediasiya prosesi

**Maddə 21. Mediasiya prosesinin tətbiqi üçün əsaslar**

21.1. Mediasiya prosesi tərəflər arasında bağlanan "mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında və ya bu qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir.

21.2. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" tərəflər arasında yaranmış mübahisənin məhkəməyə verilməsinə qədər və ya məhkəmədə işə baxılan zaman tətbiq edilə bilər.

21.3. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması təşəbbüsü ilə tərəflər və ya onlardan biri çıxış edə bilər. Məhkəmələr də tərəflərə aralarında yaranmış mübahisənin mediasiya yolu ilə həllinə dair təkliflər verirlər. Bu qanunun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallarda isə müvafiq orqanlar (qurumlar) tərəflərə bu qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq ilkin mediasiya sessiyasında iştirak etmək vəzifələrini izah edirlər.

21.4. Bu qanunla müəyyən edilmiş qaydada "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması məhkəmədə tərəflər arasında baxılan mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə icraatın dayandırılmasına səbəb olur.

21.5. Mediasiya prosesi bu qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərildiyi andan, belə təklif olmadıqda isə bu qanunun 28-ci və 29-cu maddələrinə nəzərdə tutulmuş hallarda tərəflərin ilkin mediasiya sessiyasında iştirak etdiyi, digər hallarda isə bu qanunun 22-ci maddəsində nəzərdə tutulmuş "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı andan başlanmış sayılır.

21.6. Tərəflərdən biri mediasiya prosesinin tətbiqi barədə yazılı formada digər tərəfə bu qanunun 22-ci (22.1.1-ci, 22.1.4-cü, 22.1.7-ci və 22.1.8-ci maddələr istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları, həmçinin tərəflərin qarşılıqlı razılaşdığı mediator (mediatorlar) və ya mediasiya təşkilatı varsa, bu barədə məlumatı, olmadıqda isə bu barədə təklifləri əks etdirən təklifi göndərir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin birinci cümləsində qeyd edilən təklif tərəfə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

21.7. Bu qanunun 21.8-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, bu qanunun 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə mediasiya prosesinə bu qanunun 32.1.4-cü maddəsinə əsasən, həmin təklif 10 gün ərzində hər hansı formada rədd edildikdə isə mediasiya prosesinə bu qanunun 32.1.3-cü maddəsinə əsasən avtomatik xitam verilir.

21.8. Tərəflər arasında mediasiyaya dair qeyd-şərtdə mediatorun (mediasiya təşkilatının) adı müəyyən edildiyi halda və bu qanunun 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə və ya təklif rədd edildikdə, təklifi göndərən tərəf mediasiyaya dair qeyd-şərtdə nəzərdə tutulmuş mediatora (mediasiya təşkilatına) müraciət edir. Həmin mediatorun (mediasiya təşkilatının) bu qanunun 22-ci (22.1.1-ci maddə istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları və mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən mediasiya sessiyası barədə bildirişi tərəflərə təqdim etməsindən sonra tərəflər və ya onlardan biri mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, yaxud "mediasiya prosesinin tətbiqi barədə müqavilə"ni imzalamağa razı olmadıqda, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "Mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin ikinci cümləsində qeyd edilən bildiriş tərəflərə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

21.9. Aşağıdakı tələblərin birinə əməl edilmədən məhkəməyə müraciət edildikdə müraciət məhkəmə tərəfindən baxılmamış saxlanılır:

21.9.1. bu qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulmuş hallarda tərəf bu qanunun 29.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq arayışı və ya protokolu məhkəməyə etdiyi müraciətinə əlavə etmədikdə;

21.9.2. tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı halda bu qanunun 32.2-ci maddəsində nəzərdə tutulmuş protokol məhkəməyə edilmiş müraciətə əlavə edilmədikdə;

21.9.3. tərəflər arasında mediasiyaya dair qeyd-şərt olduğu halda bu qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərilməsi ilə əlaqədar başlamış mediasiya prosesinə bu qanunun 21.7-ci maddəsində müəyyən edilmiş qaydada xitam verilmədikdə;

21.9.4. bu qanunun 21.8-ci maddəsində nəzərdə tutulmuş hallarda tərəf həmin maddədə nəzərdə tutulmuş arayışı məhkəməyə etdiyi müraciətə əlavə etmədikdə.

21.10. Tərəfin mediasiyaya dair qeyd-şərtə və ya "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada üzrsüz səbəbdən iştirak etməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 22. Mediasiya prosesinin tətbiqi barədə müqavilə**

22.1. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" yazılı şəkildə bağlanır və həmin müqavilədə aşağıdakılar göstərilir:

22.1.1. müqavilənin tarixi, vaxtı və tərtib olunduğu yer;

22.1.2. tərəflərin adları və rekvizitləri;

22.1.3. mübahisənin predmeti;

22.1.4. tərəflərin seçdiyi mediator (mediatorlar) və ya mediasiya təşkilatı haqqında məlumatlar;

22.1.5. mediasiya prosesi ilə əlaqədar xərclərin ödənilməsi şərtləri və qaydası;

22.1.6. əgər tərəflər arasında digər razılaşma yoxdursa, mediasiyanın keçirilməsinin məxfiliyi haqqında tərəflərin öhdəlikləri və həmin öhdəliyə əməl etməməyə görə məsuliyyət;

22.1.7. mediasiya prosesinin keçirilmə müddəti;

22.1.8. mediasiya prosesinin keçirilmə qaydası;

22.1.9. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.

22.2. Tərəflərin qarşılıqlı razılaşması ilə "mediasiya prosesinin tətbiqi barədə müqavilə"yə əlavə və dəyişikliklər edilə bilər.

22.3. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" təmsilçi vasitəsilə bağlanıla, ona əlavə və dəyişikliklər edilə bilər. Təmsilçiyə verilən etibarnamədə bu qanunun 22.1-ci və 22.2-ci maddələrində göstərilən səlahiyyətlər xüsusi olaraq göstərilməlidir.

**Maddə 23. Mediatorun və ya mediasiya təşkilatının seçilməsi, mediasiyanın keçirilmə yeri və vaxtı**

23.1. Mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflər qarşılıqlı razılaşma əsasında bir və ya bir neçə mediator seçir. Tərəflər mediatorun seçilməsi üçün mediasiya təşkilatına da müraciət edə bilərlər.

23.2. Tərəflər mediatorun seçilməsi üçün mediasiya təşkilatına müraciət etdikdə mediasiya təşkilatı tərəflərə bir və ya bir neçə mediatorun namizədliyini təklif edir və ya tərəflər arasında bağlanmış "mediasiya prosesinin tətbiqi barədə müqavilə"də nəzərdə tutulduğu, həmçinin tərəflərin qarşılıqlı razılaşmasına əsasən və ya bu qanunun 28.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş hallarda mediatoru (mediatorları) bilavasitə təyin edir.

23.3. Mediator və ya mediasiya təşkilatı "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı ana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini ödənişsiz izah etməlidir.

23.4. Mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında münasibətlər mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə ilə tənzimlənir. Mediasiya xidmətlərinin göstərilməsinə dair bağlanan müqavilədə mediatorun və ya mediasiya təşkilatının, tərəflərin hüquq və vəzifələri, məsuliyyəti, konfidensiallıq, mediasiya xərcləri, bu qanuna və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq digər şərtlər müəyyən olunur.

23.5. Mediator tərəflərin qarşılıqlı razılığı ilə mediasiya prosesinin keçirilmə yerini və vaxtını müəyyənləşdirir.

**Maddə 24. Mediasiya prosesinin həyata keçirilməsi qaydaları**

24.1. Mediasiya prosesi bu qanuna, mediasiya prosesinin həyata keçirilməsi qaydasına və bu qaydaya uyğun olaraq hazırlanmış mediasiya təşkilatının daxili qaydasına (olduğu halda), mediatorların peşəkar etik davranış qaydasına uyğun olaraq həyata keçirilir.

24.2. Mediasiya prosesində mediator bütün tərəflərlə birlikdə və ya ayrı-ayrılıqda görüşlər keçirə, əməkdaşlıq edə, şifahi və yazılı tövsiyələr verə bilər. Bu zaman mediator tərəflərdən birini üstün mövqeyə qoyan və ya hüquq və vəzifələrini məhdudlaşdıran hərəkətlərə yol verməməlidir.

24.3. Bu qanunun 28-ci və 29-cu maddələri nəzərə alınmaqla, tərəflər mediasiya prosesinin istənilən anında mediasiyadan imtina edə bilərlər.

24.4. Tərəflər mediasiya prosesində bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak edə bilərlər. Tərəflər mediasiya prosesində vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən istifadə edə bilərlər. Tərəflərin razılaşması ilə mediasiya prosesində digər şəxslər də iştirak edə bilər.

24.5. Mediasiya prosesində tərəflər öz mövqelərinə və mübahisənin həlli şərtlərinə dair təkliflərini yazılı və ya şifahi şəkildə bildirirlər. Mediasiya prosesində tərəflər mübahisənin həlli şərtlərinə dair razılığa gəlirlər.

24.6. Mediasiya prosesinin hər hansı mərhələsində mediator mübahisənin həlli məqsədi ilə tərəflər üçün öhdəlik nəzərdə tutmayan şifahi və ya yazılı təklifi irəli sürə bilər. Barışıq təklifi tərəflərin razılığı ilə verilir.

24.7. Bu qanunun 21.5-ci maddəsinə uyğun olaraq, mediasiya prosesinin ümumi müddəti 30 gündən artıq olmayaraq davam edə bilər. Mübahisənin mürəkkəbliyi nəzərə alınaraq tərəflərin razılaşması ilə mediasiya prosesinin müddəti daha 30 gün müddətinə qədər uzadıla bilər. Mediasiya prosesinin keçirilməsinin konkret müddəti ümumi müddət nəzərə alınmaqla "mediasiya prosesinin tətbiqi barədə müqavilə" ilə müəyyən olunur.

**Maddə 25. Mülki işlər və iqtisadi mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

25.1. Tərəflərin qarşılıqlı razılaşması ilə həlli mümkün olan istənilən mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla) mediasiya vasitəsilə həll oluna bilər.

25.2. İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 26. Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

26.1. Ailə münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr bu qanuna uyğun olaraq mediasiya vasitəsilə həll oluna bilər:

26.1.1. nikahın davam etdirilməsi şərtləri;

26.1.2. valideynlik hüquq və vəzifələrinin həyata keçirilməsi qaydası;

26.1.3. uşağın yaşayış yerinin müəyyən edilməsi;

26.1.4. uşağın və əmək qabiliyyəti olmayan digər ailə üzvlərinin saxlanılması qaydası;

26.1.5. ailə münasibətlərindən irəli gələn digər mübahisələr.

26.2. Nikah müqaviləsinə mediasiyaya dair şərtlər daxil edilə bilər.

26.3. Uşağın maraqlarına toxunan ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediator müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyini alır.

26.4. Əgər ailə münasibətlərindən irəli gələn mübahisələr zamanı uşağın normal böyüməsinə və inkişafına təhlükə yaradan, yaxud onun maraqlarına zərər vura bilən hallar mövcuddursa və ya belə halların yaranma ehtimalı olarsa, mediator bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməyə borcludur və mediator göstərilən işlər üzrə mediasiya prosesinin həyata keçirilməsindən imtina edə bilər.

26.5. Tərəflər uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməyə borcludurlar.

26.6. Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 27. Əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

27.1. Əmək münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr bu qanuna uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər:

27.1.1. fərdi əmək mübahisələri;

27.1.2. kollektiv əmək mübahisələri.

27.2. Əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 28. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin mediasiya sessiyasında iştirak**

28.1. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər.

28.2. Bu qanunun 28.1-ci maddəsində qeyd edilən mübahisələr üzrə ilkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediator təşkilatı aparır.

28.3. Tərəfin bu qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş mediasiya prosesinin tətbiqi barədə təklifi digər tərəfə təqdim edildikdən sonra 10 iş günü ərzində qəbul edilmədikdə və ya tərəflər bu qanunun 28.2-ci maddəsinə əsasən mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə, ilkin mediasiya sessiyası tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə (bu qanunun 28.4-cü maddəsi nəzərə alınmaqla) həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatı tərəfindən aparılır. Bu halda tərəflər mediator barədə razılığa gəlmədikdə, mediatoru mediasiya təşkilatı təyin edir.

28.4. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilkin mediasiya sessiyasının aparılması üçün mediator müəyyən edə bilər.

**Maddə 29. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin və sonrakı mediasiya sessiyaları**

29.1. Mediator ilkin mediasiya sessiyasında iştirak etmək üçün müraciət edən tərəflərə mediasiya prosesinin mahiyyətini, üstünlüklərini və qaydalarını izah edir, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirir. Həmin gün və ya tərəflərin müraciəti ilə mediatorun təyin etdiyi başqa gün tərəflər sonrakı mediasiya sessiyalarında iştirak etmək istəyib-istəmədiklərinə dair qərar verməlidirlər.

29.2. Tərəflər və ya onlardan biri onlara mediatorun (mediasiya təşkilatının) və ya digər tərəfin bu qanunun 22-ci (22.1.1-ci maddə istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları və ilkin mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən ilkin mediasiya sessiyası barədə bildirişi təqdim etməsindən sonra tərəflər və ya onlardan biri ilkin mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin birinci cümləsində qeyd edilən bildiriş tərəflərə ilkin mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

29.3. Tərəflərdən biri və ya hər ikisi mediasiya prosesini davam etdirməyə razılıq vermədikdə, habelə bu qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı arayışı tərəflərə təqdim edir.

29.4. Tərəfin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

29.5. Tərəflər mediasiya prosesini davam etdirməyə qərar verdikdə isə tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanılır və bu qanunun 24-cü maddəsinə uyğun olaraq mediasiya prosesi həyata keçirilir.

29.6. Tərəflər mediasiya prosesinin yekununda barışıq sazişi bağlamadıqda, habelə bu qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və bu barədə müvafiq protokolu tərəflərə təqdim edir.

29.7. Bu qanunun 29.2-ci, 29.3-cü və 29.6-cı maddələrində göstərilən arayışı və ya protokolu əldə etdikdən sonra tərəf məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət edə bilər. Müraciətə müvafiq arayış və ya protokol əlavə edilməlidir.

**Maddə 30. İnzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, inzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi, yaxud inzibati orqanın digər hərəkət və ya hərəkətsizliyindən irəli gələn mübahisələr (həmin qanunun 4.3-cü maddəsində nəzərdə tutulmuş mübahisələr (o cümlədən "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati ərazi vahidləri arasında ərazi məsələləri ilə bağlı mübahisələr) istisna olmaqla) bu qanuna uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər.

**Maddə 31. Məhkəmə mediasiyası**

31.1. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü və tərəflərin razılığı ilə, yaxud tərəflərdən birinin müraciəti və digər tərəfin razılığı ilə onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Belə halda məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

31.2. Tərəflər qarşılıqlı razılıq əsasında mübahisəyə baxacaq mediasiya təşkilatı və ya mediator barədə razılığa gələ bilərlər. Belə razılıq olmadıqda, mübahisəyə həmin məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə (bu maddənin üçüncü cümləsi nəzərə alınmaqla) həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatında baxılır. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə mediasiyanın aparılması üçün mediator müəyyən edə bilər.

31.3. Mediasiya prosesində iştirak edən, lakin müsbət nəticə əldə etməyən tərəflər və ya onlardan biri mediasiya prosesinin nəticələri barədə protokolu təqdim etməklə növbəti dəfə məhkəməyə müraciət etdikdə dayandırılmış icraat təzələnir və işə məhkəmə tərəfindən baxılır.

31.4. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə isə barışıq sazişi və ya bu barədə mediator tərəfindən tərtib olunmuş protokol məhkəməyə təqdim olunur. Məhkəmə bununla bağlı tərəflərin iştirakı ilə keçirilmiş iclasda onların razılığı ilə iş üzrə icraata xitam verir.

31.5. Hakimin fəaliyyətinin qiymətləndirilməsi zamanı mediasiyaya yönəldilən (bu qanunun 28.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) işlərin sayı və bu qanuna uyğun olaraq barışıq sazişinin əldə edilməsi əsasında icraata xitam verilən məhkəmə işlərinin sayı nəzərə alınır.

**Maddə 32. Mediasiya prosesinə xitam verilməsi**

32.1. Mediasiya prosesinə aşağıdakı hallarda xitam verilir:

32.1.1. tərəflər arasında barışıq sazişi bağlandıqda;

32.1.2. mübahisənin tərəflərin qarşılıqlı razılaşması ilə həllinin mümkünsüzlüyü mediator tərəfindən müəyyən edildikdə;

32.1.3. tərəflər və ya onlardan biri mediasiya prosesindən imtina etdikdə;

32.1.4. tərəflərin mediasiya prosesinin müddətinin uzadılmasına dair müraciətləri olmamışsa, bu qanunun 24.7-ci maddəsinə uyğun olaraq mediasiya prosesinin müddəti bitdikdə;

32.1.5. tərəf olan fiziki şəxs öldükdə, hüquqi şəxs ləğv edildikdə və ya fəaliyyəti dayandırıldıqda;

32.1.6. tərəflərdən biri məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

32.1.7. tərəflərdən birinin fəaliyyət qabiliyyətli olmaması və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmə tərəfindən müəyyən edildikdə;

32.1.8. mediator və ya mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən çıxarıldıqda, həmçinin mediator və ya mediasiya təşkilatı mediasiya prosesindən imtina etdikdə (bu qanunun 28.1-ci maddəsində nəzərdə tutulmuş mübahisələr üzrə isə yalnız sonrakı mediasiya sessiyasında imtina etdikdə);

32.1.9. bu qanunun 21.8-ci, 29.2-ci və 29.3-cü maddələrində göstərilən arayış tərtib olunduqda.

32.2. Bu qanunun 32.1.2-32.1.8-ci maddələrində nəzərdə tutulan halların mediatora məlum olduğu tarixdən 3 gün müddətində mediasiya prosesinə xitam verilməsi haqqında mediator tərəfindən protokol tərtib olunur və imzalanır. Mediasiya prosesinə xitam verilməsi haqqında protokol mediator tərəfindən tərtib olunaraq imzalandığı tarixdən 1 gün müddətində tərəflərə (nümayəndələrinə) təqdim edilməlidir. Protokola mediasiyaya dair konfidensial məlumatların daxil edilməsinə yol verilmir. Protokolun forması Mediasiya Şurası tərəfindən müəyyən olunur.

32.3. Protokolun nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur. Protokolun müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona təqdim edildiyi tarixdən 1 iş günü müddətində müvafiq orqana (quruma) təqdim edir.

32.4. Mediasiya prosesinə aşağıdakı gündən xitam verilir:

32.4.1. barışıq sazişinin imzalandığı gündən;

32.4.2. bu qanunun 32.1.9-cu maddəsində nəzərdə tutulan arayışın, 29.6-cı və ya 32.2-ci maddələrində nəzərdə tutulan protokolun tərəflərə təqdim edildiyi gündən.

32.5. Mediasiya prosesi bu qanunun 21-ci maddəsinə uyğun olaraq bərpa oluna bilər.

**Maddə 33. Barışıq sazişi**

33.1. Barışıq sazişi tərəflər arasında yazılı formada bağlanır. Barışıq sazişində aşağıdakı məlumatlar göstərilir:

33.1.1. müqavilənin tarixi və tərtib olunduğu yer;

33.1.2. tərəflər haqqında məlumat;

33.1.3. mübahisənin predmeti;

33.1.4. mediator (mediatorlar) və mediasiya prosesi mediasiya təşkilatı vasitəsilə həyata keçirildikdə mediasiya təşkilatı haqqında məlumatlar;

33.1.5. mübahisənin həlli istiqamətində tərəflərin qəbul etdiyi şərtlər, həmin şərtlərin yerinə yetirilməsinin üsul və müddətləri;

33.1.6. barışıq sazişinin şərtlərinin icra edilməməsinin və ya düzgün icra edilməməsinin nəticələri;

33.1.7. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.

33.2. Barışıq sazişi tərəflər və mediator (mediatorlar) tərəfindən imzalanır. Barışıq sazişinin nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur.

33.3. Barışıq sazişi qüvvədə olan qanunvericiliyə və bu qanunun 3.3-cü maddəsinin birinci cümləsinin müddəalarına zidd olmamalıdır.

33.4. Barışıq sazişi imzalandığı gündə tərəflərə təqdim edilməlidir. Barışıq sazişinin müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona təqdim edildiyi tarixdən 1 iş günü müddətində müvafiq orqana (quruma) təqdim edir.

**Maddə 34. Barışıq sazişinin icrası**

34.1. Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə, barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

34.2. Barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan məsuliyyətə səbəb olur.

34.3. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf (o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf) barışıq sazişinin məcburi icrası üçün məhkəməyə və ya notariusa müraciət edə bilər.

34.4. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə və ya notarius tərəfindən müvafiq qaydada təsdiq olunur (bu qanunun 34.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla).

34.5. Barışıq sazişi bu qanunun 33.3-cü maddəsinə zidd olduqda, onun təsdiq edilməsindən imtina olunur.

**Maddə 35. İddia müddətlərinin axımının dayandırılması**

35.1. Mediasiya prosesinin tətbiqi tərəflər arasında mübahisə üzrə qanunla nəzərdə tutulan iddia müddətinin axımının dayandırılmasına səbəb olur.

35.2. Mediasiya prosesi nəticəsində tərəflər arasında barışıq sazişi imzalanmazsa, mübahisə üzrə iddia müddətinin axımı bu qanunun 32.4.2-ci maddəsində nəzərdə tutulan tarixdən bərpa olunmuş hesab olunur.

**Maddə 36. Mediasiya xərcləri**

36.1. Mediasiya prosesinə dair xərclərə daxildir:

36.1.1. mediatora və ya mediasiya təşkilatına ödənilən haqq, o cümlədən mübahisə mediasiya vasitəsilə müsbət həll olunduqda mediatora və ya mediasiya təşkilatına ödənilən mükafat;

36.1.2. mediasiyanın keçirilməsi ilə əlaqədar mediatorun və ya mediasiya təşkilatının çəkdiyi xərclər, o cümlədən mübahisənin baxıldığı yerə getmək üçün yol, yaşayış və yemək xərcləri.

36.2. Bu qanunun 28-ci maddəsində nəzərdə tutulmuş ilkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

36.3. Mediator və ya mediasiya təşkilatı mediasiyanı ödənişli əsaslarla həyata keçirir. Mediator və ya mediasiya təşkilatı öz razılığı ilə mediasiyanı ödənişsiz əsaslarla da həyata keçirə bilər.

36.4. Mediatora və ya mediasiya təşkilatına ödənilən haqqın məbləği mediasiya sessiyası başlanana qədər (bu qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulan hallarda isə bu qanunun 29.5-ci maddəsi nəzərə alınmaqla sonrakı mediasiya sessiyası başlanana qədər) tərəflərlə mediator və ya mediasiya təşkilatı arasında bu qanunun 23.4-cü maddəsinə uyğun olaraq bağlanan müqavilədə müəyyən olunur.

36.5. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"də və mediasiyaya dair qeyd-şərtdə başqa şərt nəzərdə tutulmayıbsa, həmçinin ilkin mediasiya sessiyasında tərəfin üzrsüz səbəbdən iştirak etməməsi halında digər tərəfin bütün mediasiya xərclərini ödədiyi hallar istisna olmaqla, mediasiyaya çəkilən xərclər tərəflər arasında bərabər şəkildə bölüşdürülür. Mediasiyaya dair qeyd-şərtə və ya "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada, həmçinin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməyən tərəf mediasiya ilə bağlı digər tərəfin çəkdiyi bütün mediasiya xərclərini ona ödəməlidir.

36.6. Mediator onun qərəzsizliyinə mane olan şərtlər səbəbindən mediasiyanın keçirilməsindən imtina edərsə, tərəflərin ödədiyi məbləği (faktiki çəkilmiş xərclər çıxılmaqla) geri qaytarmalıdır.

36.7. Mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan hər hansı tərəfin mediasiya xərclərinin ödənilməsi dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

36.8. Barışıq sazişi imzalandıqdan sonra mediator tərəflərə çəkilmiş xərclər barədə hesabat verir və xərclənməmiş qalıq məbləği onlara qaytarır.

### 5-ci fəsil. Yekun müddəalar

**Maddə 37. Bu qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun tələblərinin pozulmasına görə mediator, mediasiya təşkilatı, tərəflər və mediasiyada iştirak edən digər şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 38. Keçid müddəa**

İlk mediasiya təlimi qurumu Mediasiya Şurasının üzvlüyünə qəbul edilənədək bu qanunun 10.1.1-10.1.3-cü və 10.2-ci maddələrinin tələblərinə cavab verən mediator, həmçinin bu qanunun 11.2-ci və 11.3.1-11.3.3-cü maddələrinin tələblərinə cavab verən mediasiya təşkilatı bu qanuna uyğun olaraq mediasiya xidmətlərini göstərə bilər.

**Maddə 39. Bu qanunun qüvvəyə minməsi**

Bu qanunun 3.2-ci, 28-ci və 29-cu maddələri və həmin maddələrlə bağlı olan müddəalar 2020-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

# Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiya yaradılıb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiyanın yaradılması haqqında qərar imzalayıb.

AZƏRTAC xəbər verir ki, qərarla Baş nazirin müavininin sədrlik etdiyi, Nazirlər Kabineti Aparatının humanitar və sosial məsələlər şöbəsinin müdirinin katibi olduğu komissiyaya müdafiə, daxili işlər, mədəniyyət, gənclər və idman, təhsil, səhiyyə, maliyyə, əmək və əhalinin sosial müdafiəsi nazirlərinin müavinləri, Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin, Dövlət Turizm Agentliyi sədrinin, Milli Arxiv İdarəsi rəisinin müavinləri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri daxildir.

Qərara əsasən, dövlət müəssisələrinin, təşkilatlarının, idarələrinin və digər obyektlərin adlarının dəyişdirilməsi, onlara görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin adlarının verilməsi ilə əlaqədar daxil olmuş təkliflər və Nazirlər Kabineti qarşısında qaldırılmış vəsatətlər Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün bu qərarla yaradılan komissiyaya təqdim edilir.

Qərardan irəli gələn digər məsələlər "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanına əsasən həll edilir. Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhidlərin adının əbədiləşdirilməsi ilə əlaqədar komissiyanın yaradılması haqqında" 1995-ci il 10 yanvar tarixli 5 nömrəli və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhidlərin adının əbədiləşdirilməsi ilə əlaqədar komissiyanın yaradılması haqqında" 1995-ci il 10 yanvar tarixli 5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" 1995-ci il 10 avqust tarixli 181 nömrəli qərarları ləğv edilir.

# Azərbaycanlı akademik Kiyevdə keçirilən beynəlxalq konfransda iştirak edib

Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunun direktoru, akademik Fikrət Əliyev Ukrayna Elmlər Akademiyasının Riyaziyyat İnstitutunda AMMODİT (Approximation Methods for Molecular Modelling and Diaqnosis Tools) konfransının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, konfransda Avropanın bir çox ölkələrindən (Almaniya, Çexiya, Belarus və s.) 55 tanınmış alim iştirak edib. Fikrət Əliyev institutda aparılan tədqiqat işləri haqqında 20 dəqiqəlik məruzə ilə çıxış edib. O, əldə edilən nəticələr əsasında əməkdaşlıq qurmaq üçün almaniyalı professor C.Tunik ilə müzakirələr aparıb.

AMMODİT 2017-2019-cu illər üçün Avropa Şurası tərəfindən maliyyələşdirilən qrant layihəsidir. Bu layihənin davamı olan SOMPATY (Spectral Optimization: From Mathematics to Physics and Advanced Texnology) 2020-2023-cü illərdə yenidən Avropa Şurası tərəfindən maliyyələşdiriləcək. BDU-nun Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunun və Mexanika-riyaziyyat fakültəsinin iştirak etdiyi layihədə Azərbaycan, Almaniya, Çexiya və Ukrayna birgə çalışacaq.

Konfransda layihənin şərtləri, Azərbaycan tərəfinin öhdəlikləri müzakirə olunub.

# Dövlət dəstəyi qurub-yaratmaq əzmini artırıb

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası Qobustan rayonunun simasını da dəyişib, gözəlləşdirib. Başqa sözlə, dövlət dəstəyi bu yerlərə yeni nəfəs, insanlara qurub-yaratmaq əzmi bəxş edib.







Rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov bununla bağlı dedi ki, 2014-2018-ci illərdə Prezident İlham Əliyev Qobustan rayonunda xəstəxananın, xalçaçılıq emalatxanasının, məktəb və uşaq bağçasının tikintisi, əkin sahələrinin suvarılması, yol çəkilişi, abadlıq və quruculuqla əlaqədar 10 sərəncam imzalayıb. Həmin sərəncamlarla rayona 31 milyon manatdan artıq vəsait ayrılıb. Bu da rayon büdcəsindən 8 dəfə çoxdur.

Öyrəndik ki, Prezidentin 9 fevral 2018-ci il tarixli sərəncamı ilə ayrılmış 15 milyon 520 min manat vəsait hesabına Qobustan Rayon Mərkəzi Xəstəxanasının tikintisi, mövcud xəstəxana binalarının təmiri, avadanlıq və inventarla təchiz başa çatdırılıb. Yaxın vaxtlarda mərkəzi xəstəxananın açılışı gözlənilir.

21 fevral 2018-ci il tarixli sərəncamla ayrılmış 2 milyon manat vəsaitlə Qobustan şəhərində xalçaçılıq emalatxanası tikilib. Hazırda burada 55 nəfər işçi çalışır. Müəssisə tam istifadəyə verildikdən sonra isə 165-dən çox sakinin məşğulluğu təmin ediləcək. Eyni zamanda, "Azərxalça" ASC tərəfindən Qobustan rayonunda Regional Yun Qəbulu Məntəqəsi də inşa olunub.

Ölkə rəhbərinin 12 fevral 2018-ci il tarixli sərəncamı ilə ayrılmış vəsait hesabına Qobustan şəhərində 2 nömrəli 100 yerlik uşaq bağçasında son tamamlama işləri aparılır.

2018-ci ilin mart ayında Prezidentin sərəncamları ilə ayrılan vəsait hesabına rayonun Çuxanlı və Sündü kəndlərinin sakinlərinə rahatlıq bəxş edilib. Kəndlərin hərəsində bir artezian quyusu qazılıb. Şıxzahırlı və İlanlı kəndlərinə ilk dəfə təbii qaz verilib. Hazırda rayon əhalisinin 96 faizi təbii qazla təmin edilir.

Dövlət başçısının 2 aprel 2018-ci il tarixli sərəncamı ilə rayonun Şıxzərli kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması üçün Təhsil Nazirliyinə 425,0 min manat vəsait ayrılıb. Hazırda məktəbin tikintisi davam edir.

Ümumilikdə, son illər rayonda 16 yeni məktəb binası tikilib, 4 məktəb əsaslı təmir olunub, 1 məkəb üçün 10 əlavə sinif otağı inşa edilib, 1 məktəbin tikintisinə başlanıb. Məktəblərin maddi-texniki bazası da möhkəmləndirilib və ən müasir avadanlıq və texniki qurğularla təmin olunub. Hazırda rayondakı məktəblərin 70 faizi müasir tələblərə tam şəkildə cavab verən, yeni inşa edilmiş və ya əsaslı təmir olunmuş binalardır.

Dövlət başçısının ötən il Qobustan rayonu üzrə imzaladığı sayca yeddinci sərəncam oktyabr ayının 23-də olub. Həmin sərəncamla ayrılmış 6,4 milyon manat vəsaitlə beş min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Qobustan-Poladlı avtomobil yolunun tikintisi başa çatdırılmaq üzrədir. Yaxın vaxtlarda yol tam şəkildə istismara veriləcək.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da Qobustan rayonu üzrə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Rayon sakinləri həmin proqramda üzərlərinə düşən vəzifələri yerinə yetirmək üçün ilin ilk günlərindən əzmlə çalışırlar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Dövlət Sərhəd Xidmətinin Akademiyasında təşkil olunan akademik kursların məzunlarına sertifikatlar verilib





Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyasında təşkil olunan akademik kursların növbəti məzunlarına sertifikatların verilməsi münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlayan mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev bu tədbirin ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli sərhəd mühafizəsi strategiyasının Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməsinin növbəti təntənəsi olduğunu qeyd edib.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dəstəyi ilə DSX-də mükəmməl tədris sisteminin formalaşdırıldığı xüsusi vurğulanıb. DSX-nin Xüsusi Məktəbində, akademiyasında və akademik kurslarda 14 illik ümumi təhsil müddətində zabit heyətinin milli dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi, peşəkar zabit və vətənpərvər kimi yetişdirilməsi, nəticə etibarilə vətən hüdudlarının layiqli müdafiəçisi kimi formalaşdırıldığı qeyd olunub.

Bildirilib ki, bu mükəmməl hərbi təhsil sisteminin əsasını təşkil edən DSX Akademiyasının 2007-ci il iyunun 12-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yaradılması sayəsində ali hərbi təhsilli sərhədçi zabit kadrlarının, komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanması, dövlət sərhədlərinin mühafizəsi və hərbi iş sahəsində elmi tədqiqatların aparılması sahəsində önəmli nəticələr əldə olunub, mükəmməl elmi-pedaqoji potensial və maddi-texniki baza formalaşdırılıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə əsaslı təmir edildikdən sonra ən müasir tədris bazası ilə təmin olunaraq Dövlət Sərhəd Xidmətinin balansına verilmiş Xüsusi Məktəbdə 7 il ərzində DSX Akademiyası üçün layiqli kursantların hazırlanması, bu təhsil ocağına daxil olmaq barədə müraciətlərin sayının ildən-ilə əhəmiyyətli dərəcədə artması, 2019-cu ildə bir kursant yerinə 26 namizədin müraciət etməsinin sərhədçi peşəsinə böyük marağın göstəricisi olduğu bildirilib.

Akademik kursların bitirilməsinə həsr olunmuş təntənəli tədbirin Azərbaycan hərb tarixinin zəfər günləri olan 2016-cı ilin Aprel döyüşlərinin ildönümünə təsadüf etməsi ilə əlaqədar vətən uğrunda həyatlarını qurban vermiş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xüsusi vurğulanıb ki, həmin günlərdə Ermənistan ordusunun hərbi birləşmələrinin təxribatının qarşısının alınması zamanı Azərbaycan əsgərinin, çavuşunun, gizirinin, zabitinin qəhrəmanlığı, cəsarəti və rəşadəti sayəsində düşmənin alınmaz bildiyi döyüş mövqeləri, qərargahlar və hərbi hissələr darmadağın edilib. Azərbaycanın hərbi qüdrətinin nümayiş etdirilməsi, Azərbaycan sərhədçilərinin bu qələbənin əldə olunmasına ciddi töhfə verməsi, şəxsi heyətimizin Prezident İlham Əliyevin komandanlığı altında torpaqlarımızı işğaldan azad etmək üçün hər bir döyüş tapşırığının icrasına daim hazır olmaları xüsusi qeyd olunub.

Akademik kursları bitirmiş zabitlər vətənə sədaqətlə xidmət edəcəklərinə, onlara göstərilən etimadı nümunəvi xidmətləri ilə doğruldacaqlarına, dövlət sərhədlərimizin etibarlı mühafizəsini təmin etmək üçün bilik və bacarıqlarını əsirgəməyəcəklərinə söz veriblər.

Sonda ulu öndər Heydər Əliyevin möhtəşəm abidəsi önündə xatirə şəkli çəkilib.

# Əhali tibbi müayinəni dövlət başçısının qayğısı kimi dəyərləndirir

Göygöl Rayon Mərkəzi Xəstəxanasının həyatinə daxil olanda çoxlu sayda insanla qarşılaşdıq. Onlar ölkə rəhbəri İlham Əliyevin tapşırığına əsasən keçirilən tibbi müayinə aksiyasında iştirak etmək üçün toplaşmışdılar.





Qarşımıza çıxan ilk rayon sakinindən tibbi müayinənin necə getdiyi barədə soruşduq. Sevinc Rzayeva dedi ki, sağ olsun Prezidentimiz. Azərbaycan vətəndaşlarının sosial durumu ilə yanaşı onların sağlamlığı barədə də düşünür. Məhz bunun nəticəsidir ki, hər il əhalinin pulsuz tibbi müayinəsi aksiyasının keçirilməsi barədə göstəriş verir. İndi mən də aksiyada iştirak etmək üçün bura gəlmişəm.

Tibbi müayinədən keçən Qəşəm Hacıyev isə dedi ki, 83 yaşım var. Mən də müayinədən keçdim. Şükürlər olsun ki, elə bir ciddi xəstəlik aşkar edilmədi. Ancaq həyat yoldaşım Natəvanı müayinə edəndə onun cərrahiyyə əməliyyatına ehtiyacı olduğunu söylədilər. Təmənnasız əməliyyat etdilər. İndi o, özünü çox yaxşı hiss edir. Buna görə aksiyanın təşkilatçılarına ailəmiz adından minnətdarlığımı bildirirəm.

Göygöl şəhər sakini Zemfira Rüstəmova da bu aksiyanın əhəmiyyətindən danışdı. Dedi ki, uzun illər musiqi məktəbində müəllimə işləmişəm. Hazırda təqaüdçüyəm. Son vaxtlar özümü narahat hiss edirdim. Müayinə olunanda dedilər ki, şəkər xəstəsiyəm. Mənə müalicə yazıb, məsləhətlər verdilər. Sağ olsunlar, düşünürəm ki, bu aksiya olmasaydı, xəstəliyim barədə məlumatım olmayacaqdı.

Tibbi müayinənin gedişi ilə əlaqədar xəstəxananın baş həkimi Hamlet Ömərovla görüşdük. Söhbət zamanı məlum oldu ki, aksiyanın mütəşəkkil keçirilməsi üçün bir poliklinika və iki kənd sahə xəstəxanasında hazırlıq işləri görülmüş, səhiyyə ocaqları hər cür dərman preparatları və tibbi ləvazimatlarla təchiz edilmişdir. Bundan başqa, 2 səyyar həkim briqadası təşkil edilmişdir ki, bu briqadalar da hər gün səhər tezdən kəndlərə gedərək tibbi müayinələr aparırlar. İşin yüksək səviyyədə təşkilinin nəticəsidir ki, aprelin 2-dək 12 min 329 nəfər müayinədən keçirilmişdir. Müayinə olunanların 2223 nəfərində müxtəlif xəstəliklər aşkar edilmişdir ki, onlardan da bəziləri stasionar, bəziləri isə ambulator müalicəyə cəlb edilmişdir. 6 nəfər xəstə isə Bakiya ixtisaslaşdırılmış xəstəxanalara göndərilmişdir.

Xəstəxananın poliklinika şöbəsinin müdiri Rauf Abuzərov isə dedi ki, aksiya başlanandan həkimlər bir dəqiqə də olsun boş dayanmırlar. Çünki sakinlər aksiyada fəallıqla iştirak edirlər. Hər gün səhərdən axşamadək poliklinika dolub-boşalır. Onlar tibbi müayinələrə böyük həvəslə gəlir, sağlamlıq durumları barədə məlumat toplayırlar. Odur ki, tibb işçilərimiz çalışırlar ki, aksiyanın sonunadək bir nəfər də olsun göygöllü kənarda qalmasın.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistan ordusu iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Baş Qərvənd, Acarlı, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


## Azərbaycan Respublikasının Energetika Nazirliyi

*açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

